# İbtidai məktəb
# və
# məktəbəqədər
# tərbiyə

(Metodik məcmuə)

1970-ci ildən
çıxır.
№ 3 (151)
(iyul-sentyabr)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

15656

2000
3

## Bu nömrədə

**Y.Ş.Kərimov.** İbtidai təhsilin dövlət standartları haqqında ... 3

**Fənlərin tədrisi və qabaqcıl təcrübə**

**F.İbrahimov.** Toplama əməlinin öyrədilməsinin alqoritmik əsasları ... 5

**K.Məmmədova.** İbtidai sinif şagirdlərinin müstəqil işinin təşkili təcrübəsindən ... 10

**S.Məmmədova.** Müəllim-şagird münasibətlərinin əməkdaşlıq pedaqogikası əsasında qurulması şagirdlərin tə'lim marağının artırılmasında mühüm vasitədir ... 16

**Məktəbşünaslıq**

**Ş.Əzimov.** İbtidai siniflərdə tədrisin keyfiyyətini yüksəldək ... 19

**R.Əliyeva.** İbtidai siniflər üzrə məktəbdaxili metodbirləşmələrin fəaliyyətinin mühüm problemləri ... 20

**Tərbiyə problemləri**

**Q.Abdulla.** İbtidai siniflərdə musiqi tə'liminin məzmununa dair ... 28

**Ş.Tahirova.** Kiçikyaşlı məktəblilərin halallıq tərbiyəsi ... 32

**Məktəbəqədər tərbiyə və tə'lim**

**Z.Zeynalova.** Uşaq əməyinin özünəməxsusluğu və tərbiyəvi əhəmiyyəti ... 36

**L.Bağırova.** Uşaqlarda həssaslığın psixoloji əsasları ... 39

**X.Məmmədova.** Körpəyaşlıların tərbiyəsi ... 44

**K.Əliyeva.** "Məktəbəqədər müəssisələrdə tərbiyə və tə'lim" proqramına metodik işləmələr ... 48

**Pedaqoji fikir tarixindən**

**N.Rüstəmova.** Y.A.Korçakın ideyaları ... *53*

**Proqram materiallarının planlaşdırılması**

Savad tə'limi üzrə proqram materiallarının təxmini planlaşdırılması ... 60

II sinifdə oxu dərsləri üzrə proqram materiallarının təxmini planlaşıdırlması. Dərs ilinin I yarısı ... 67

**N.Laçınov.** I sinifdə hüsnxət ... 69

**S. Kərimova.** II sinifdə hüsnxət ... 70

**Əmək tə'limi**

A. Stabil hissə ... 71

B. Tematik variantlı hissə ... 72

**Baş redaktor Y.Ş.Kərimov**

Redaksiya hey'əti: A.Rəhimov, Ş.Məmmədov (məs'ul katib), A.Həsənov, A.Muradov, M.Həsənov, L.Məmmədova, N.Əliyeva, N.Abbasov, İ.Mayılov, Ə.Əliyev.

Yığılmağa verilmiş 05.07.2000. Çapa imzalanmış 01.08.2000. Kağız formatı 70x108 1/16. Fiziki çap vərəqi 6,5. Tirajı 1000. Sifariş 37. Qiyməti 6000 manat.

Redaksiyanın ünvanı: 370010, Bakı, Azərbaycan prospekti, 40.

Telefonlar: 93-84-41, 93-82-71.

Jurnal redaksiyanın kompüter mərkəzində yazılmış və "Nasir" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

# İBTİDAİ TƏHSİLİN DÖVLƏT STANDARTLARI HAQQINDA

*prof. Y.Ş.Kərimov*

Təhsil sahəsində islahat proqramına uyğun olaraq ümumtəhsil dövlət standartları layihəsi hazırlanmışdır.

Orta ümumtəhsil məktəbləri üçün standartların hazırlanması ideyası ilk dəfə Rusiya tərəfindən 1998-ci ildə yerinə yetirilmişdir. Bu standartın konsepsiyasına, ümumi istiqamətinə Avropa şurasının beynəlxalq ekspertləri və Müstəqil Dövlət Şurasına üzv olan bə'zi ölkələrin elm və təhsil orqanları rə'y vermişlər.

Dövlət standartlarının hazırlanması dünya təhsil sistemini yaxınlaşdırır, inteqrasiya edir. Biz milli müstəqilliyimizi, mentalitetimizi nəzərə almaqla öz Dövlət standartlarımızı hazırlayarkən onu Rusiyanın dövlət standartları ilə qaynaq etməyə çalışmışıq. Bunsuz vahid məxrəcə gəlmək, dünya standartlarına doğru irəliləmək mümkün deyil.

İbtidai təhsil standartlarının xarakteristikası. İbtidai təhsil dövlət standartı təhsilin ibtidai həlqəsini (IV sinfi) başa çatdıran şagirdlərin hazırlıq səviyyəsinə verilən tələbləri, tədris yükünün əsas məcburi minimumunu müəyyənləşdirən normativ sənəddir. Standart təhsilin ibtidai mərhələsini bitirən şagirdlərin təhsillənmə səviyyəsini səciyyələndirir.

Standart iki səviyyədə işlənmişdir: 1) ibtidai təhsilin məzmununun məcburi minimumu; 2) şagirdlərin hazırlıq səviyyəsinə verilən tələblər.

Məcburi minimum hər bir məktəbdə hər bir şagirdin yerinə yetirməli olduğu ibtidai təhsilin əsas və tam məzmununu açır. Hər bir müəllim səviyyəsini aşağı salmadan onu məktəbin real şəraitinə uyğun şəkildə tətbiq edə bilər. Bu, tə'limdə fərdiləşməyə imkan yaradır.

**İbtidai təhsilin məqsədi.** Fasiləsiz təhsilin ən məs'uliyyətli və mürəkkəb həlqəsi olan ibtidai təhsilin qarşısında şagirdlərin intellektual inkişafının zəruri səviyyəsini yüksəltmək, elmlərin əsasları üzrə sadə biliklər vermək, həmçinin aşağıdakı ümumpedaqoji vəzifələr durur: şagirdlərdə təbiət və cəmiyyət haqqında ilkin elmi təsəvvürlər formalaşdırmaq, onların şüurunu zənginləşdirmək, dərketməyə marağını inkişaf etdirmək; oxu, yazı və hesablama vərdişləri aşılamaq; sual vermək, suallara cavab vermək, müşahidə aparmaq, gördüyü əşya və hadisələri təhlil etmək, qruplaşdırmaq, təsnif etmək; mücərrədləşdirmək, ümumiləşdirmək, əqli nəticə çıxarmaq, mühakimə yürütmək, öz mövqeyini müdafiə etmək, sübuta yetirmək, bir sözlə, sadə nəzəri təfəkkürə, nitq mədəniyyətinə malik olmaq, tərbiyə və inkişaf üzrə işi yerinə yetirmək və s. Bir sözlə, şəxsiyyətin formalaşmasını tə'min etmək, onların qabiliyyətlərini məqsədyönlü inkişaf etdirmək, onlarda oxumaq arzusu və bacarığı formalaşdırmaqdır.

Tədris fəaliyyətinin formalaşması əsasında uşağın şəxsiyyətinin tərbiyəsi və ümumi inkişafı ön plana çəkilir. Bütün bunlar ibtidai təhsilə onu

başa vuranların yuxarı siniflərdə sistematik kursları mənimsəmələri üçün propedavtik mərhələ kimi baxmağa əsas verir. Bu mərhələ elmi həqiqətləri praktik yolla, sadə sistemlə təqdim edir.

Məktəb islahatı ilə əlaqədar baza tədris planında nəzərdə tutulmuş məcburi dərslərlə yanaşı, seçmə üzrə fakültativ məşğələlərin təşkilinə də geniş imkanlar var.

Standartda baza tədris planında təhsil sahələrinin (dil və oxu, riyaziyyat, təbiət, insan, cəmiyyət) yeri müəyyən edilir.

Standartın quruluşu belədir:

1. Ümumi müddəalar.
2. İbtidai təhsilin məzmununun məcburi minimumu.
3. Şagirdlərin hazırlıq səviyyəsinə tələblər.
4. Tələblərin yerinə yetirilməsinin qiymətləndirilməsi.

Məzmunun məcburi minimumu başlığı altında hər bir təhsil sahəsi üzrə şagirdlərin biliklərinə və bacarıqlarına tələblər verilir.

Standartların tələblərinin yerinə yetiriləsinin qiymətləndirilməsi bölməsində müəllim və ekspert komissiyası tərəfindən aparılan yoxlamalardan söz açılır.

Bu bölmədə göstərilir ki, şagirdlərin təhsillənmə səviyyəsinin obyektiv ölçülməsi ilə müxtəlif sosial institutlar (məktəb, cəmiyyət, ailə) və konkret sosial qruplar (müəllimlər, şagirdlər, valideynlər) maraqlıdır. Bu, müəllim üçün pedaqoji diaqonostika metodudur. Onun köməyi ilə şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnmələrinin müvəffəqiyyətliliyini və müəllimin pedaqoji fəaliyyətini təhlil etmək mümkün olur.

Şagirdlər bu metodun köməyi ilə öz nailiyyətləri və ya təhsildə xətaya yol vermələri haqqında informasiya alır, öz nəticələrini etalon nəticələrlə müqayisə edə bilirlər. Beləliklə, bu metod özünənəzarət vəzifəsini yerinə yetirir.

Validyenlər üçün bu metod uşağın inkişafının necə getməsini, nəticənin yaxşılaşdırılması üçün nə etməyin lazım gəldiyini xəbər verir, övladının təhsillənmə imkanlarının hansı səviyyədə olmasına bələdləşməyə şərait yaradır. Bu halda həmin metod proqnoz vəzifəsini yerinə yetirir.

Standartda hər bir təhsil sahəsi üzrə test tapşırıqları və nəticələrin qiymətləndirilməsi qaydaları verilir.

Standartın "İnsan" təhsil sahəsi müəllimlər üçün daha maraqlıdır. Burada tə'lim bacarıqları, kommunikativ bacarıqlar, oxuculuq bacarığı, əmək bacarığı, əxlaqi davranış mədəniyyətinin məzmunu onlara verilən tələblər bu tələblərin qiymətələndirilməsi əhatə olunur.

Göründüyü kimi, təhsil standartları bə'zilərinin zənn etdikləri kimi amorf şəkildə olan proqramların analoqu deyil. Təhsil standartları dördüncü dərs ilinin axırında şagirdlərin hazırlıq səviyyələrinə verilən tələbləri müxtəlif parametrlər üzrə müəyyənləşdirir. Bu tələblər dünyanın inkişaf etmiş ölkələrinin təhsil sisteminin tələblərinə, onların standartlarına yaxınlaşır.

Hər bir sinif üçün proqramlar (alternativ proqramlar) bu standartlar əsasında yaranacaq, formalaşacaqdır.

# TOPLAMA ƏMƏLİNİN ÖYRƏDİLMƏSİNİN ALQORİTMİK ƏSASLARI

*Firədun İbrahimov*
*BPKİA və YHİ-nin Şəki filialının direktoru*

On dairəsində, daha sonra isə yüz dairəsində toplama və çıxmanın öyrədilməsi birlikdə həyata keçirilir və əsasən əməllərin xassələrindən (cəmin yerdəyişmə xassəsindən, ədədə cəmin və cəmə ədədin əlavə edilməsi, cəmdən ədədin və ədəddən cəmin çıxılmasının müxtəlif üsullarından), həmçinin toplama və çıxma arasındakı əlaqədən istifadəyə əsaslanır. Biz toplama əməlinin öyrədilməsinin alqoritmik əsasları haqqında söhbət açmaqla əməllərarası əlaqəyə e'tinasızlıq göstərmək fikrində deyilik. Bunun bir sıra səbəbləri var. Birinci, hər bir əməlin yerinə yetirilməsi alqoritmi özünəməxsus xüsusiyyətlərə —elementlərə, elementlərin ardıcıllığına və əlaqəsinə malik olduğundan bu yola üstünlük vermişik. Digər tərəfdən, birinci minliyin və milyonluğun tədrisində toplama, çıxma, vurma və bölmə əməllərinin hər birini ayrıca öyrənmək məqsədəuyğundur. Məhz bu konsentlərdə yazılı alqoritmlər mərkəzi halqa kimi mənimsənilir. Nəhayət, şərhin sadəliyi üçün belə yanaşmanın seçilməsini məqsədəuyğun hesab etmişik*.

Tutaq ki, $x_1,x_2,x_3$ . . . xn, $u_1,u_2$ $u_3$ . . . un $z_1$ $z_2$ $z_3$ . . . zk və s. ədədlərin toplamaq lazımdır. bu məqsədlə aşağıdakı addımların ardıcıllığına əməl etməliyik:

1. $x_1,x_2,x_3$ . . . xn, $u_1,u_2$ $u_3$ . . . un $z_1$ $z_2$ $z_3$ . . . zn və s. təkliklər təkliklərin, onluqlar onluqların və i.a. uyğun mərtəbə vahidləri bir-birinin altında yerləşmək şərtilə daha çoxrəqəmlidən başlayaraq ardıcıl azrəqəmli ədədlərə keçməklə alt-alta yazılır, solda toplama ("+") işarəsi qoyulur, altdan xətt çəkilir; 2-ci bəndə keçilir.

2. Təkliklər mərtəbəsinin vahidləri toplanılır, əgər alınan cəm 10-dan kiçikdirsə, təkliklər mərtəbəsinin altından yazılır, 4-cü bəndə keçilir; əks halda 3-cü bəndə keçilir.

3. Alınan cəmin təkliyi təkliklər mərtəbəsinin altından yazılır, digər vahidləri isə birinci toplananın uyğun mərtəbə vahidlərinə əlavə olunur; 4-cü bəndə keçilir.

4. Onluqlar mərtəbəsinin vahidləri toplanır, əgər alınan cəm 10-dan kiçikdirsə, onluqlar mərtəbəsinin altından yazılır, 6-cı bəndə keçilir; əks halda 5-ci bəndə keçilir.

5. Alınan cəmin sonuncu rəqəmi onluqlar mərtəbəsinin altından yazılır, digər vahidləri isə birinci toplananın uyğun mərtəbə vahidlərinə əlavə olunur; 6-cı bəndə keçilir.

6. Proses göstərilən addımlar ardıcıllığına analoji qaydada çoxrəqəmli

* "Alqoritm" termininindən şagirdin xəbərdar olmasına lüzum yoxdur, bu istiqamətdə edilən cəhdi məqbul hesab etmirik. Sadəcə olaraq hər bir şagird həmin alqoritmi öz sözləri ilə qaydalar sistemi kimi izah etməyi bacarmalıdır. Başqa sözlə, əməli gedişlərini izah etməyi və əsaslandırmağı bacarmalıdır.

ədədin (rəqəmləri sayı ən çox olan toplananın) ən böyük mərtəbə vahidinədək davam etdirilir; nəticə müəyyənləşdirilir.

İbtidai sinif şagirdlərinin təqdim olunmuş alqoritm üzrə fəaliyyət göstərə bilmələri üçün onlar a) çoxrəqəmli ədədlərin nömrələnməsini və b) 20 dairəsində toplamanı yaxşı bilməlidirlər. Eyni zamanda şagirdlər toplama alqoritmlərinin elementar addımları ardıcıllığını müəyyənləşdirməyi və icra etməyi bacarmalıdırlar.

Toplama alqoritminin şagirdlər tərəfindən mənimsənilməsinə yönələn iş sistemi konsentrlər üzrə davam etdirilir və özündə aşağıdakı pillələri ehtiva edir: a) mərtəbəni aşmayaraq ədədləri toplamaq; b) toplananlarında sıfır olan və cəmdə sıfır alınan ədədləri toplamaq; v) mərtəbələri aşmaqla toplamaq.

Şübhəsiz ki, bu sistem çərçivəsində şagirdləri toplamanın müxtəlif halları üzərində çalışdırmaq lazımdır. Bunlara aşağıdakıları aid etmək olar: toplananların rəqəmləri sayı bərabər və müxtəlif olan misallar həlli; mərtəbələri aşmaq sayı tədricən artan misalların həlli; bir neçə toplananı olan misalların həlli (Ətraflı mə'lumat üçün bax: A.S. Pçelko. İbtidai məktəbdə hesabın tədrisi metodikası. B., 1949, səh. 247).

Praktikadan mə'lumdur ki, ibtidai sinif şagirdləri tərəfindən toplama əməlinin alqoritmini tez, səhvsiz və şüurlu şəkildə tətbiqi yalnız xüsusi metodika üzrə təşkil olunan gərgin tə'lim əməyi nəticəsində mümkündür. Bu prosesdə xüsusi əhəmiyyət kəsb edən aşağıdakı mərhələləri ayıra bilərik:

1) On dairəsində ədədlərin toplanması alqoritminin mənimsənilməsi;
2) 20 dairəsində onluğu aşmamaqla və onluğu aşmaqla ədədlərin toplanması alqoritminin mənimsənilməsi;
3) 100 dairəsində onluğu aşmamaqla və onluğu aşmaqla ədədlərin toplanması alqoritminin mənimsənilməsi;
4) Min dairəsində ədədlərin şifahi toplanmasının xüsusi hallarına aid alqoritmlərin mənimsənilməsi;
5) Min dairəsində ədədlərin yazılı toplanması alqoritminin mənimsənilməsi;
6) Çoxrəqəmli (milyon dairəsində) ədədlərin toplanması alqoritminin mənimsənilməsi.

Mə'lumdur ki, məktəbə qədəm qoyan şagirdin toplama üsulu saymadır: çoxluqları birləşdirir və sayır. Vacib məsələ mükəmməl toplama üsuluna keçmədir. Bu iş üç mərhələ ilə əhatə olunur: 1) təklikləri ardıcıl əlavə etmə; 2) bir qrup təkliyi əlavə etmə; 3) toplananların yerini dəyişmə.

Təklikləri ardıcıl əlavə etmək 10-a qədər davam etdirilir, əməli xarakter daşıyır. Bu, saymağa, ədədlərin adları sırasını bilməyə əsaslanır. İki-iki əlavəetmə prosesində də bir-bir üstəgəlmə tətbiq olunur. Burada cüt ədədlərin üstünə ikiləri əlavəetmə təmrinlərini öncə, tək ədədlərin üstünə ikiləri əlavəetmə təmrinlərini sonra yerinə yetirmək lazımdır. Ədədin üzərinə ikiliyi (ikini) gəlmək ilk toplama alqoritmi kimi qəbul oluna bilər (2=1+1; 2+1=3; 3+1=4, deməli, 2+2=4)

3,4 və 5-i üstəgəlmə zamanı 3,4 və 5-i əmələ gətirən qrupların

(bu qruplara ayırmanı şagird çətinlik çəkmədən bacarmalıdır) ədədə əlavə olunması üsulundan istifadə olunur. Onun alqoritmi belədir:

1. Verilmiş ədədə əlavə olunması tələb edilən ədəd qruplara ayrılır;

2. Verilmiş ədədə ayrılmış qruplardan biri əlavə olunur, yarımçıq (və ya aralıq) nəticə müəyyənləşdirilir;

3. Yarımçıq (və ya aralı) nəticəyə sonrakı qruplar ardıcıl olaraq əlavə olunmaqla proses davam etdirilir.

4. Bu prosesdə şagirdlər əvvəl öyrənmiş olduğu halları təkrar edir, sonrakı toplama cədvəlini həm qurur, həm də mənimsəyir. Toplama prosesi əyani şəkildə belə cərəyan edir:

| 5+4 | 5+4 | 5+4 |
|---|---|---|
| 1. 4=3+1 | 1. 4=2+2 | 1. 4=1+3 |
| 2. 5+3=8 | 2. 5+2=7 | 2. 5+1=6 |
| 3. 8+1=9 | 3. 7+2=9 | 3. 6+3=9 |
| 4. 5+4=9 | 4. 5+4=9 | 4. 5+4=9 |

İkinci onluğu öyrənərkən əvvəl onluğu aşmamaqla toplama, sonra isə bir onluqdan o birinə aşmaqla toplamanı öyrənmək lazımdır.

Onluğu aşmamaqla toplama üsulları aşağıdakı ardıcıllıqla izah edilir:

1) Tam onluğu təkliklərə və ya təklikləri onluğa əlavəetmə;

2) İkirəqəmli ədədə birrəqəmli ədədi əlavəetmə və tərsinə;

3) Nəticədə 20 almaqla ikirəqəmli ədədə birrəqəmli ədədin əlavə edilməsi və tərsinə.

Onluğu aşmaqla hesablama prosesini şagirdlərin dürüst "görə" bilmələri üçün onun aşağıdakı alqoritmik sistemini konkret misallar üzrə yazmaq (göstərmək) faydalıdır:

1. Birinci toplananı 10-a tamamlayan ədədin müəyyənləşdirilməsi;

2. İkinci toplanandan müəyyən edilmiş tamamlayıcının ayrılması (bu, ikinci toplananın tərkiblərə ayrılışıdır və şagirdlər üçün belə tərkiblərə ayırmaq çətinlik törətmir);

3. 10-un üzərinə qalığın əlavə olunması. Məsələn, tutaq ki, 7+8 cəmini tapmaq tələb olunur.

<u>7+8</u>

1. 7+3=10
2. 8-3=5
3. 10+5=15

7+3+5=15

7+8=15

Yüz dairəsində onluğu aşmamaqla toplamaya aşağıdakı hallar daxildir:

1)Yuvarlaq onluqlarla təklikləri toplama;

2) İkirəqəmli ədədin təklikləri ilə bunun üzərinə gəlmək üçün verilən birrəqəmli ədədin cəmi 10 ədədindən az olduğu hal;

3) İkirəqəmli ədədə onluqları əlavə etmək və tərsinə.

4. İkirəqəmli ədədləri toplama halı. Burada iki üsul var.

Birinci üsulun alqoritmik şəkli belədir:

1) Birinci toplananın onluqları və təklikləri ayrılır;

2) İkinci toplananın onluqları və təklikləri ayrılır;

(bu qruplara ayırmanı şagird çətinlik çəkmədən bacarmalıdır) ədədə əlavə olunması üsulundan istifadə olunur. Onun alqoritmi belədir:

1. Verilmiş ədədə əlavə olunması tələb edilən ədəd qruplara ayrılır;
2. Verilmiş ədədə ayrılmış qruplardan biri əlavə olunur, yarımçıq (və ya aralıq) nəticə müəyyənləşdirilir;
3. Yarımçıq (və ya aralı) nəticəyə sonrakı qruplar ardıcıl olaraq əlavə olunmaqla proses davam etdirilir.
4. Bu prosesdə şagirdlər əvvəl öyrənmiş olduğu halları təkrar edir, sonrakı toplama cədvəlini həm qurur, həm də mənimsəyir. Toplama prosesi əyani şəkildə belə cərəyan edir:

| 5+4 | 5+4 | 5+4 |
|---|---|---|
| 1. 4=3+1 | 1. 4=2+2 | 1. 4=1+3 |
| 2. 5+3=8 | 2. 5+2=7 | 2. 5+1=6 |
| 3. 8+1=9 | 3. 7+2=9 | 3. 6+3=9 |
| 4. 5+4=9 | 4. 5+4=9 | 4. 5+4=9 |

İkinci onluğu öyrənərkən əvvəl onluğu aşmamaqla toplama, sonra isə bir onluqdan o birinə aşmaqla toplamanı öyrənmək lazımdır.

Onluğu aşmamaqla toplama üsulları aşağıdakı ardıcıllıqla izah edilir:

1) Tam onluğu təkliklərə və ya təklikləri onluğa əlavəetmə;
2) İkirəqəmli ədədə birrəqəmli ədədi əlavəetmə və tərsinə;
3) Nəticədə 20 almaqla ikirəqəmli ədədə birrəqəmli ədədin əlavə edilməsi və tərsinə.

Onluğu aşmaqla hesablama prosesini şagirdlərin dürüst "görə" bilmələri üçün onun aşağıdakı alqoritmik sistemini konkret misallar üzrə yazmaq (göstərmək) faydalıdır:

1. Birinci toplananı 10-a tamamlayan ədədin müəyyənləşdirilməsi;
2. İkinci toplanandan müəyyən edilmiş tamamlayıcının ayrılması (bu, ikinci toplananın tərkiblərə ayrılışıdır və şagirdlər üçün belə tərkiblərə ayırmaq çətinlik törətmir);
3. 10-un üzərinə qalığın əlavə olunması. Məsələn, tutaq ki, 7+8 cəmini tapmaq tələb olunur.

7+8

1. 7+3=10
2. 8-3=5
3. 10+5=15

7+3+5=15

7+8=15

Yüz dairəsində onluğu aşmamaqla toplamaya aşağıdakı hallar daxildir:

1)Yuvarlaq onluqlarla təklikləri toplama;
2) İkirəqəmli ədədin təklikləri ilə bunun üzərinə gəlmək üçün verilən birrəqəmli ədədin cəmi 10 ədədindən az olduğu hal;
3) İkirəqəmli ədədə onluqları əlavə etmək və tərsinə.
4. İkirəqəmli ədədləri toplama halı. Burada iki üsul var.

Birinci üsulun alqoritmik şəkli belədir:

1) Birinci toplananın onluqları və təklikləri ayrılır;
2) İkinci toplananın onluqları və təklikləri ayrılır;

3) Birinci və ikinci toplanının onluqları cəmlənir;
4) Birinci və ikinci toplananın təklikləri cəmlənir;
5) Onluqların cəminə təkliklərin cəmi əlavə olunur.
Misal. 45+23=(40+5)+ ( 20+3)=(40+20)+(5+3)=60+8-68
1. 40+5
2. 20+3
3. 40+20=60
4. 5+3=8
5. 60+8=68
**45+23=68**

**İkinci üsul.** Bu üsulda ancaq ikinci toplanan onluqlara və təkliklərə ayrılır. Birinci toplanana əvvəlcə ikincinin onluqları, sonra isə təklikləri əlavə olunur.

Misal. 45+23=45+(20+3)=(45+20)+3=65+3=68
və ya
**45+23**
1. 2-+3
2. 45+20=65
3. 65+3=68
**45+23=68**

5. İkirqəməli ədədi yuvarlaq onluqlara qədər tamamlama halı.
Bu halda toplama zamanı təkliklər təkliklərə əlavə edilir, onluq alınır. Bu onluq da onluqlara əlavə olunur.
Məsələn, 36+4=30+(6+4)=30+10=40 və ya
**36+4**
1. 30+6
2. 6+4=10
3. 30+10=40
**36+4=40**

Təkliklərin cəmi 10 ədədinə bərabər olan ikirəqəmli ədədləri toplama halı.
Bu halda onluqlarla onluqlar, təkliklərlə təkliklər toplanır. Məsələn,
58+22=(50+20)+(8+2)=70+10=80;
37+53=(30+50)+(7+3)=80+10=90
və ya

| **58+22** | **37+53** |
|---|---|
| 1. 50+8 | 1. 30+7 |
| 2. 20+2 | 2. 50+3 |
| 3. 50+20=70 | 3. 30+50=80 |
| 4. 8+2=10 | 4. 7+3=10 |
| 5. 7+10=80 | 5. 80+10=90 |
| **58+22=80** | **37+53=90** |

Qeyd edək ki, toplama prosesinin (58+20)+2=78+2=80 halının tətbiqi də istisna olunmur. Alqoritmik şəkildə fikri əməliyyatlar belə icra olunur:

3. Onluqları toplayıb üzərinə yadda saxlanılan onluğu əlavə edin və nəticəni onluğun altından yazın.

"Minlik" mövzusunun tədrisi nəticəsində şagirdlər istənilən üçrəqəmli ədədləri toplama prosesini (cəm 1000-dən böyük olmamaq şərti ilə) özündə saxlayan alqoritmi səhvsiz və cəld tətbiq etməyi bacarmalıdır. Həmin alqoritmin şifahi sözlü təsviri belədir;

1.Toplanmalı ədədlər bir-birinin altından yazılır; bir şərtlə ki, təkliklər-təkliklərin, onluqlar-onluqların, yüzlüklər-yüzlüklərin altında yerləşmiş olsun; solda toplama işarəsi qoyulur, altdan xətt çəkilir; ikinci bəndə keçilir.

2.Təkliklər toplanır, əgər alınan ədəd 10-dan kiçikdirsə, həmin ədəd təkliklərin sütununda altdan yazılır, 4-cü bəndə keçilir; Əks halda 3-cü bəndə keçilir.

3.Alınan ədədin təkliyi təkliklər sütununda altdan yazılır, onluğu isə onluqlara əlavə etmək üçün yadda saxlanılır; 4-cü bəndə keçilir.

4.Əgər yadda saxlanılan onluqlar varsa, o da nəzərə alınmaqla onluqlar toplanır, nəticədə alınan ədəd 10-dan kiçikdirsə onluq mərtəbəsi sütununda altdan yazılır. 6-cı bəndə keçilir; əks halda 5-ci bəndə keçilir.

5. Alınan ədədin onluğu onluqlar mərtəbəsi sütununda altdan yazılır, yüzlüyü isə yüzlüklərin üzərinə əlavə olunmaq üçün yadda saxlanılır, 6-c bəndə keçilir.

6. Əgər yadda saxlanılan yüzlük varsa, o da nəzərə alınmaqla yüzlüklər toplanır və yüzlüklər sütununda altdan yazılır; cəm müəyyən olunur.

Göstərilən alqoritm üzrə üçrəqəmli ədədləri toplama prosesinə hazıranmış olur. Üçrəqəmli ədədləri toplama üzrə işə uyğun çoxrəqəmli ədədləri toplama alqoritmi şagirdlərə mənimsədilir.

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN MÜSTƏQİL İŞİNİN TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

***Kəmalə Məmmədova***
***Bakı şəhəri,Binəqədi rayonu,***
***30 nömrəli məktəbin müəllimi***

Tə'limdə şagirdlərin müstəqilliyi məsələsi qədim tarixə malikdir. Bu məsələ klassik pedaqoqların diqqətini cəlb etmişdir. Onlar öz əsərlərində şagirdlərin fəallıq və müstəqilliyinin zəruriliyini əsaslandırmağa çalışmışlar. XVII əsrin məşhur pedaqoqu Y.A.Komenski "müəlimin az, şagirdlərin isə çox işləmələri" tələbini irəli sürürdü. O, "şagirdə başqalarının gözü ilə baxmağı, başqalarının fikri ilə düşünməyi" öyrədən doqmatik tə'limi kəskin tənqid edib göstərirdi ki, "ağlı da cavan ağac kimi öz kökləri ilə inkişafa alışdırmaq" lazımdır. O, bununla göstərmək istəyirdi ki, şagird tə'limdə özü düşünməli, müşahidə etməli, müstəqil sürətdə fəaliyyət göstərməyi bacarmalı, bir sözlə, öz ağlı ilə hərəkət etməyi öyrənməlidir.

XVIII əsrdə yaşamış görkəmli fransız mütəfəkkiri J.J.Russo öz "sərbəst tərbiyə" ideyasından çıxış edərək tə'limi uşağın müstəqilliyi və şəxsi təcrübəsi əsasında qurmağı tələb edirdi. Tə'limdə şagirdlərin müstəqilliyi məsələsi böyük İsveç pedaqoqu və demokratı İ.H.Pestalotsinin də diqqətini cəlb etmişdir. O, tə'limin vəzifəsini uşağın idrak qabiliyyətini, zehni fəallığını inkişaf etdirməkdə, ona məntiqi düşünmə bacarığı aşılamaqda görürdü. Şagirdlərdə fəallıq və müstəqillik ideyası böyük rus pedaqoqu və psixoloqu K.D.Uşinskinin didaktik tə'limində xüsusi yer tutur. Görkəmli pedaqoqun fikrincə, məktəbdə "uşaqlar mümkün qədər müstəqil çalışmalı, müəllim isə bu müstəqil əməyə rəhbərlik etməli və ona material verməlidir".

Şagirdlərin tə'limdə müstəqilliyi məsələsi Azərbaycan pedaqoji fikir tarixində də müəyyən yer tutur. Hələ XII əsrdə yaşamış Azərbaycanın görkəmli şair və mütəfəkkirləri Xaqani və Nizaminin, XVI əsrdə yaşamış dahi Füzulinin bədii əsərlərində insan ağlına, onun müstəqil rə'yə malik olmasına dair qiymətli fikirlər vardır. XIX və XX əsrlərdə yaşamış Azərbaycan maarifpərvərləri A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, N.Nərimaov, C.Məmmədquluzadə və başqaları gənc nəslin fəallıq və müstəqilliyinə yüksək qiymət vermişlər.

Tə'limdə şagirdlərin müstəqil işi böyük təhsil və tərbiyəvi əhəmiyyətə malikdir. Şagirdlərin müstəqil işi tə'limin səmərə və keyfiyyətini yüksəltməyə imkan verir. Müstəqil iş bilikləri yaradıcı tətbiq etməyə, şagirdlərin fikri inkişafına kömək edir. Tə'limdə şagirdlərin müstəqil işi onları fəallışdırır, biliyin şüurlu mənimsənilməsinə kömək edir. Müstəqil iş şagirdlərdə öz biliklərinə inamı artırır, onlarda ideya möhkəmliyi üçün əlverişli zəmin yaradır. Tə'limdə şagirdlərin müstəqilliyinə gəlincə, bunu tə'limin prinsipi kimi xarakterizə etmək məqsədəmüvafiqdir. Hazırda elm və texnikanın coşğun inkişafı ilə əlaqədar gənc nəsli müstəqil bilik əldə etməyə, özünütəhsillə məşğul olmağa hazırlamağın həyati zərurətə çevrildiyi bir dövrdə müstəqillik prinsipindən tə'limdə müəllimin rəhbər rolu ilə şagirdlərin fəallıq və müstəqilliyinin uzlaşdırılması vasitəsi kimi istifadə etmək məqsədəmüvafiqdir. Müəllimin tapşırığı ilə, lakin onların bilavasitə rəhbərliyi olmadan müəyyən zaman fasiləsində şagirdlərin mənimsədikləri biliyi, bacarıq və vərdişləri möhkəmləndirən, onları fikri fəallığa, axtarıcılığa yönəldən işlərin optimal sistemi müstəqil iş adlanır.

Müstəqil fikir söyləməyi, işləməyi bacarmayan şagird, adətən, başqasından köçürməyə, ondan imdad gözləməyə, onun köməyi ilə çıxış etməyə can atır. Biz belə hallara qarşı mübarizə aparmalı, şagirdləri hər bir "məsələyə müstəqil surətdə yanaşa bilməyə", təfəkkürlərinin müstəqilliyinə, fəallığa alışdırmalıyıq.

Şagirdlərin müstəqil işlərinin təsnifatı məsələsi pedaqoji ədəbiyyatda bir mə'nalı deyil. Öz təcrübəmdə aşağıdakı variantlardan istifadə edirəm.

Birinci istiqamətdə təsnifat müstəqil işin zahiri cəhətlərinə- bu işlərin təşkili və müəllimin rəhbərlik xüsusiyyətlərinə əsaslanır. Bu istiqamət üzrə nisbətən tipik təsnifat aşağıdakılardan ibarətdir. Bir qrup pedaqoq müstəqil işi didaktik məqsədlərə görə təsnif edir: yeni biliyin

mənimsənilməsi, bacarıq və vərdişlərin aşılanması, biliklərin tətbiqi, təkrar və yoxlama məqsədi güdən müstəqil işlər. Məsələn, M.İ.Maro müstəqil işləri iki qrupa bölür: öyrədici və yoxlayıcı xarakterl müstəqil işlər.

İkinci qrup pedaqoqlar müstəqil işi bilik mənbələrinə və tə'lim metodlarına görə təsnif edirlər: dərslik , dərs kitabı və mə'lumat ədəbiyyatı üzrə iş, məsələ həlli, tə'lim çalışmaları, inşa və təsvirlər, müşahidə və laboratoriya işləri, əyani və paylama materialları ilə iş, qrafik işlər.

Üçüncü qrup pedaqoqlar öz tədqiqatlarında müstəqil işlərin təşkili formasına görə müxtəlif növlərini tədqiq edirlər.

Bu təsnifatlar, hər şeydən əvvəl, praktik cəhətdən maraq doğurur: müstəqil işləri şagirdlərin tə'lim fəaliyyətin daxil etməyin müxtəlif vasitə və imkanlarını göstərməklə müəllimə lazımi istiqamət verir. Müstəqil iş növləri ayrı-ayrı fənlərin xüsusiyyətlərindən asılı olaraq müxtəlif məzmunda ola bilər.

## Savad təlimi

**Kəsmə əlifba üzrə iş:** müəllimin və yoldaşlarının göstərdiyi hərfin adını və ya adına görə hərfi tapmaq, müəllimin göstərdiyi hərflərdən heca və söz düzəltmək, sözləri hecalar, səslərə və hərflərə ayırmaq, müxətlif növ hecalar və tərkibində həmin hecaların olduğu sözlər düzmək, verilmiş şəkillərin adını və onlara aid sadə cümlələr düzüb oxumaq, hərf və heca artırmaq və ya ixtisar etməklə sözü dəyişmək.

**Heca cədvəli üzrə iş:** verilmiş hecaları oxuyub heca cədvəlində östərmək, verilmiş hecaya müvafiq heca artırıb söz düzəltmək: iki (üç) müvafiq heca tapıb söz düzəltmək, verilmiş mövzu üzrə (məktəb ləvazimatı, ailə üzvləri, ev heyvanları) sözlər düzəltmək.

## Oxu

1) mətni müxtəlif məqsədlərlə səssiz oxumaq; 2) seçmə oxu; 3) mətnin planı üzrə iş; 4) lüğət üzrə iş; 5) mətni nağıl etmə üzrə iş.

## Azərbaycan dili

**Keçilmiş qayda üzrə iş:**

Keçilmiş qaydaya aid şagirdlərin müstəqil faktlar, nümunələr tapması, qrammatik formaya aid misallar seçmək, verilmiş şəkilçiyə, söz və ifadələrdən keçilmiş qaydalara aid nümunələrin qurulması.

**Şərhli yazılar:** yeni qaydanın tətbiqi, keçilmişlərin təkrarı və nisbətən çətin sözlərin yazılışı ilə əlaqədar yazı prosesində şagirdlərin növbə ilə və ya seçmə izahat verməsi.

**Üzündən köçürmə yazılar:** sözün, cümlənin, mətnin müxtəlif məqsədlərlə köçürülməsi.

Грамматик, орфографифк тәһлилләр: fonetik təhlil; orfoepik təhlil, morfoloji təhlil, orfoqrafik təhlil, qrammatik kartoçkalarla iş.

**Müxtəlif növ imla yazılar:** öyrədici imlalar, yoxlama imlalar.

**Yaddaşa əsasən yazı:** cümlə, mətn və əzbərlənmiş şe'rin yazılması.

**Rabitəli nitqin inkişafı:** ifadə və inşa yazılar.

## Səhvlər üzərində iş

### Riyaziyyat üzrə müstəqil işlər

Riyazi qaydaların mənimsənilməsi üzrə iş qaydanın dərsikdən oxunub təkrar edilməsi, keçilmiş qaydalara aid şagirdlərin şifahi çalışmalar üzərində müstəqil işi;

**Qaydanın məsələ və misallara tətbiqi üzrə çalışmalar:** keçilən qaydaya aid suallara cavab tapmaq, müəyyən qaydaya aid fakt və ümumiləşdirmələrin əsaslandırılması. Keçilən qaydaya aid misal və məsələ qurmaq.

**Məsələ həlli üzrə iş:** dərslikdən müstəqil olaraq məsələnin şərtini öyrənmək və onu qısa şəkildə yazmaq, məsələnin həlli yolu üzərində fikirləşmək, plansız həll edilmiş məsələyə oxşar və ya şərtdəki rəqəmləri dəyişdirməklə məsələ həlli, məsələnin həlli qaydasını və ya alınmış nəticəni izah etmək, məsələni bir neçə yolla həll etmək, müstəqil məsələ qurmaq və s.

**Misal həlli üzrə iş:** müəyyən qaydaya aid misal həlli.

Həndəsə materialları üzrə iş.

### Təbiətşünaslıq üzrə müstəqil iş

**Mətn üzrə iş:** mətni müxtəlif məqsədlərlə müstəqil oxumaq, mətni səssiz oxuyub, plan və suallar üzrə danışmağa hazırlaşmaq, mətnin planını tərtib etmək, verilmiş suallara müstəqil cavab vermək, müxtəlif təbiət hadisələrini əsaslandırmaq, müqayisə etmək.

**Müşahidələr:** ilin müxtəlif fəsillərində təbiətdə baş verən hadisələr üzərində müşahidələr , onların qeydə alınması.

**Praktik işlər:** havanın temperaturunun ölçülməsi, bitki herbariləri hazırlamaq, toxum və həşərat kolleksiyaları hazırlamaq, kompas ilə və Günəşə görə cəhətləri tə'yin etmək.

**Təcrübə işləri:** dərslikdə təsvir olunan sadə təcrübələr aparmaq.

**Xəritə və qlobusla iş:** müəyyən obyektləri tapmaq, onları kontur xəritədə işarə etmək.

Şagirdlərin müstəqil işi ayrı-ayrı didaktik məqsədlər daşıya bilər. Daşıdıqları didaktik məqsəddən asılı olaraq müstəqil işlər aşağıdakı tiplərə bölünür: yeni biliyi mənimsətmək məqsədi güdən müstəqil işlər; bilikləri möhkəmlətmək, bacarıq və vərdişlər aşılamaq məqsədi güdən müstəqil işlər.

Yeni biliyin mənimsənilməsi zamanı müstəqil işlər prosesində şagirdlərin müstəqilliyinə əsaslanmağın böyük əhəmiyyəti vardır. Şagirdlərin təfəkkür və əməli müstəqilliyi şəraitində mənimsənilən biliklər şüurlu xarakter daşımaqla, uzun müddət yadda qalır. K.D.Uşinski demişdir: müəllim tərəfindən izah edilmiş fikrin , şagird tərəfindən başa düşüləcəyini zənn etmək belə, yenə bu halda həmin fikir heç zaman şagirdin başında, onun özünün hasil etdiyi fikir qədər möhkəm və şüurlu yerləşməz, onun tam mülkiyyətinə çevrilməz". Ona görə də şagirdləri yeni mövzuya hazırlamaq məqsədi güdən müstəqil işlərə geniş yer verirəm. Bu, onlarda yeni biliyə maraq oyadır, biliyin asan və şüurlu mənimsənilməsinə

kömək edir. Təcrübəmdə şagirdləri yeni mövzunu mənimsəməyə hazırlamaq məqsədi ilə müxtəlif tapşırıqlardan istifadə edirəm.

İbtidai tə'limdə yeni materialın mənimsənilməsi ilə əlaqədar əvvəllər keçilmiş müvafiq materialın təkrarı üzrə şagirdlərin müstəqil işini təşkil edirəm. Yeni biliklə əlaqələndiriləcək keçmiş materialın düzgün seçilməsi mühüm şərtdir: məsələn, I sinifdə riyaziyyatdan "3-ü üstə gəlmə və çıxma" qaydasını mənimsəməyə hazırlamaq məqsədi ilə mən "2-ni üstə gəlmə və çıxma" qaydasının təkrarına istinad edirəm.

4+2=6 4+3=7

4+1+1=6 4+1+1+1=7

Şagidlərin müstəqil işi onları yeni qaydanı şüurlu mənimsəməyə hazırlayır: müəllim qaydanı uşaqların fəallığı şəraitində mənimsədir.

Təcrübə göstərir ki, təbiət materialları, dil və riyazi faktlar üzərində şagirdlərin müstəqil müşahidələrini təşkil etmək əsasında yeni materialın şüurlu mənimsənilməsini tə'min etmək mümkündür. Biliklərin mənimsənilməsi prosesində şagirdlərin müstəqil zehni işini təşkil etməkdə müsahibədən geniş istifadə edirəm. Mə'lumdur ki, sual- təfəkkür prosesinin mühüm şərtidir, təfəkkür həmişə sualdan başlayır. Odur ki, dərsə hazırlıq zamanı verəcəyim suallar və onların sistemi üzərində ciddi düşünürəm.

Yeni biliyin mənimsənilməsində şagirdləri müstəqil işə cəlb etmək vasitəsindən biri də kitab üzərində işdir.

Şagirdlərin dərslik üzərində müstəqil işinin təşkili zamanı onları mətnin təhlilinə, oradakı fakt, hadisə və surətlər arasındakı əlaqəni müəyyənləşdirməyə, nəticə çıxarmağa təhrik edirəm.

Yeni biliyin şüurlu və möhkəm mənimsənilməsi elə bir şəraitdə mümkündür ki, müəllim şagirdlərə biliyi hazır verməyib, onların müstəqil fikrini oyatsın, şagirdlərin mövcud bilik və təcrübəsini yeni məsələlərin həllinə cəlb etsin, onları problem şəraitinə salıb müstəqil nəticələr çıxarmağa təhrik etmiş olsun.

Yeni bilyiin mənimsənilməsi həm də o zaman səmərəli olur ki, bu prosesi də şagirdlərin müsətqil işi müəllimin bilavasitə işinin düzgün əlaqəsi tə'min edilmiş olsun. Biliklərin möhkəmləndirilməsi didaktikanın mühüm tələblərindən biridir. K.D.Uşinski demişdir ki, uşaqlar tez və asan mənimsəyir, təkrarlanmadıqda tez və asan da unudulur.

Təcrübəmdə biliklərin möhkəmləndirilməsi zamanı hafizə və təfəkkürün vəhdətini tə'min etməyə çalışıram. Mən möhkəmləndirmə prosesində şagirdlərin müstəqil işlərinin müxtəlif növlərindən geniş istifadə edirəm.

Təkrar zamanı müqayisələrə böyük yer vermək lazımdır. Müqayisə biliklərin şüurlu təkrarlanmasına, möhkəm yadda qalmasına kömək edir. K.D.Uşinski öyrənilmiş şeyləri mütləq öyrənilmiş qayda ilə təkrar etdirməyin əleyhinə çıxaraq bu zaman müqayisələrə, fakt və hadisələr arasında oxşar və fərqli cəhətlərin tapılmasına geniş yer verməyi tövsiyə edirdi. Onun fikrincə, "müqayisə hər cür anlamanın, hər cür təfəkkürün əsasıdır".

Biliklərin möhkəmləndirilməsinin bir vasitəsi də onların tətbiqidir. Şagirdlər biliklərin tətbiqi prosesində bacarıq və vərdişlərə yiyələnirlər. Tə'limdə bacarıq və vərdişlərin formalaşmasının əsas yolunu çalışmalar təşkil edir. Çalışmalar o zaman yaxşı nəticə verir ki, onlar şagirdlərin fəallıq və müstəqilliyinə əsaslanmış olsun. Azərbaycan dili dərslərində belə alışma öyrədici imlalar, ifadə və inşalar, lüğət –məntiqi tapşırıqlar şəklində özünü göstərir.

Riyaziyyat dərslərində məsələ və misalların müxtəlif metodlarla həlli , müstəqil məsələ və misal tərtibi şagirdlərin bilik və bacarıqlara şüurlu və möhkəm yiyələnmələrinə xidmət edir.

Bilik, bacarıq və vərdişlərin yoxlanmasında sorğu mühüm yer tutur. Sorğu zamanı kiçik məktəblilər kitabdakı mətni olduğu kimi danışmağa, çox vaxt isə əzbər söyləməyə meyl edirlər. Mən bu halla mübarizə aparır, şagirdlərin materialı kitab cümlələri ilə deyil, öz sözləri ilə danışmalarına müstəqil fikri fəaliyyətlərinə diqqət yetirirəm. Yaradıcı nağıletmə şagirdlərin müstəqil fikri işinin ən yaxşı vasitəsidir.

Şagirdlərin bilik və bacarıqlarının səviyyəsini daha obyektiv yoxlamaq işində yoxlama yazı işləri xüsusi yer tutur. Yoxlama yazı işləri şagirdlərin bilikləri nə dərəcədə şüurlu başa düşdüklərini nəzəri biliklərini tətbiq etmək bacarıqlarını aşkara çıxarmağa imkan verir.

Apardığım yoxlama işləri həm məzmunu, həm də təşkli cəhətdən şagirdlərin tam müstəqilliyinə əsaslanır. Yazı işlərini yoxlayarkən təkcə şagirdin səhv buraxıb-buraxmamasına yox, həm də müstəqilliyinə fikir verirəm.

Yoxlama prosesinin səmərəsi şagirdlərin müstəqil işi ilə müəllimin işinin düzgün əlaqələndirməsilə sıx bağlıdır. Mən bu cəhəti belə gözləyirəm.

1) şagirdlərin müstəqil işi onların bilik və bacarıqlarının tamlığını aşkara çıxarmağa xidmət edir;
2) yoxlama, şagirdlərin fərdi cvabı şəklində həyata keçirilir;
3) şagirdləri yazıda yol verdikləri bütün səhvlər düzəldildikdən sonra səhvlərin xarakteri və səbəbləri müzakirə olunur;
4) şagirdlərin yol verdikləri səhvləri yalnız işarə edib onların düzəldilməsinə istiqamət verilir. Şagirdlərin müstəqil işi öz səhvlərini dərk etməyə və müəllimin verdiyi istiqamətdə təshih etməyə xidmət edir.

Mənim fikrimcə, şagirdlərlə müstəqil işin təşkilinə hər bir müəllim öz imkanları baxımından yanaşmaqla, şagirdləri yaradıcılığa, axtarışlar aparmağa alışdırmalıdır. Yetirmələrimiz müstəqil işləməyi, müstəqil düşünməyi bacarmalıdır.

# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ƏMƏKDAŞLIQ PEDAQOGİKASI ƏSASINDA QURULMASI ŞAGİRDLƏRİN TƏ'LİM MARAĞININ ARTIRILMASINDA MÜHÜM VASİTƏDİR

*Solmaz Məmmədova*
*Bakıdakı 236 nömrəli məktəbin müəllimi*

Azərbaycan Respublikasının müstəqillik yoluna qədəm qoyması, təhsil sahəsinə də öz tə'sirini göstərir. Təhsil yeni ideya, yeni məzmun, yeni forma, yeni baxışlı gənclərin tərbiyə olunmasına zəmin yaradır.

1999/2000-ci il "Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı ili" e'lan edilib. Ümumiyyətlə, təhsilin humanistləşdirilməsi dedikdə, təhsil müəssisələrində şagirdin bir şəxsiyyət kimi formalaşması əsas götürülür və pedaqoji kollektivin fəaliyyətində şagirdə hərtərəfli münasibət, onun mənafeyinə xidmət etmək istiqamətləri mühüm yer tutur.

Şagirdlərin təhsilə marağı, tədris olunan fənlərin sevdirilməsi üçün əsas me'yar, müəllim-şagird münasibətlərinin səmimiyyət üzərində qurulmasıdır. Pedaqoji fəaliyyətin belə əməkdaşlığı hər bir şagirdin intellektual imkanlarını, meyl və maraqlarını daha düzgün aşkara çıxarmağa imkan verir. Bu da hər bir şagirdin nə ilə maraqlandığını öyrənməklə, onun qabiliyyətinin, iste'dadının düzgün istiqamətlənməsinə, eyni zamanda inkişaf etdirilməsinə kömək göstərir. Belə qayğıkeş münasibət uşaqda özünə inam hissi yaradır. O, öz bacarığını, nəyə qadir olduğunu ürəklə nümayiş etdirir.

Şagirdlərdə yeni pedaqoji təfəkkürün inkişafı iş formalarının təşkilində psixoloji baxımdan da özünü büruzə verməlidir. Şagirdə onun cəmiyyət üçün gərəkli olduğuna inam hissi aşılanmalıdır. Bunun üçün hər hansı bir hadisəyə, mövzuya, şagirddə yaranan mülahizələr, təkliflər diqqətlə dinlənilməli və birgə nəticəyə gəlinməlidir.

"Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişaf etdirilməsi" prinsipinə nail olmaq üçün birinci müəllim özündən başlamalıdır. Müəllim humanist olmalı, hər bir uşağa humanistcəsinə yanaşmağı və onlara işıqlı yol göstərməyi bacarmalıdır. Müəllim hərtərəfli şəxsiyyət olmalı, ilk növbədə özü müasir tələblərə cavab verə biləcək səviyyəyə qalxmalıdır. Yaxşı mə'lumdur ki, müəllim şəxsiyyətinin şagirdlərə tə'siri elə bir tərbiyə qüvvəsidir ki, onu nəsihətlərlə, dərs kitabları ilə, cəza yaxud mükafat ilə əvəz etmək mümkün deyil.

Gərək müəllimin dediyi ilə əməli arasında uçurum olmasın. Yalnız bu zaman o, şagirdlərin inamını qazana bilər.

Mə'lumdur ki, şagird güzgüdür. Onun duyma qabiliyyəti güclüdür. O, hər şeyi yaxşı görür, qiymətləndirməyi də bacarır.

İndi artıq totalitar rejim tam arxada qalıb. Uşaqları qorxutmaqla, cəza tədbiri görməklə, amirliklə heç bir yeniliyə nail olmaq mümkün deyil. Uşaq qorxaq, yaltaq, ikiüzlü, təkəbbürlü, ərköyün böyüməməlidir.

Müəllim-şagird münasibətləri elə olmalıdır ki, əsl şəxsiyyət yetişdirə bilək.

Hər bir şagirddə torpağa, xalqa, millətin əmlakına, dilimizə, adət-ən'ənələrimizə, böyük və kiçiklərə, milli qəhrəmanlarımıza, folklorumuza, çörəyə məhəbbət, düşmənə nifrət hissi aşılamalıyıq.

Yaxşı mə'lumdur ki, ibtidai siniflərdə dərs deyən müəllimlər müxtəlif xasiyyətli uşaqlarla işləməli olurlar. Bu uşaqlar öz inkişafına görə bir-birindən çox vaxt ciddi şəkildə fərqlənirlər. Uşaq özlüyündə kəşf olunmamış dünyadır. Bu dünyaya bələd olmaq, onunla faydalı iş aparmaq üçün müəllim valideynləri də cəlb etməklə hər bir şagirdin xüsusiyyətlərini dərindən öyrənməlidir.

Mən sentyabrın birində öz ciyərparasının əlindən tutub həvəslə məktəbə yaxınlaşan valideynlərin həyəcanından hər bir şeyi yaxşı başa düşürəm. Valideyn ən əziz, ən qiymətli sərvəti olan uşaqlarının tə'lim və tərbiyəsini məktəbə, müəllimə e'tibar edir.

Çalışıram ki, valideynlərdə olan bu cür həvəs sönməsin. Uşaqlarını gələcəyin hərtərəfli inkişaf etmiş vətəndaşı kimi görmək həvəsləri daha da artsın. Onlar bu işdə müəllimə yaxın köməkçi olsunlar. Valideynlərlə əlbir işləmək daha yaxşı nəticə verir.

İlk dəfə məktəb psixoloqunun, həkimin iştirakı ilə hər bir uşağın xüsusiyyətlərini öyrənirəm. Uşaqlarla işlədikcə, ünsiyyətdə olduqca, uşağın valideyni ilə söhbətdə onlar haqqında daha ətraflı mə'lumat toplayıram. Bu, mənim üçün necə yanaşmaq qaydasını araşdırır və həyata keçirirəm.

Əvvəlcə şagirdlərə onların hüquq və vəzifələrini öyrədirəm. Uşaqların hüququna hörmət etmək, onlara məhəbbətlə, eyni qayğı ilə yanaşmaq mühüm məsələdir. Dərsdə müəllim hakimi- mütləq olmamalı, uşaqla dostluq etməyi, qarşılıqlı münasibətdə olmağı bacarmalıdır. Bə'zi uşaqlar utandıqlarından, ya da səhvə yol verəcəklərindən qorxaraq dialoqa qoşulmurlar.

Mən hər fənn üzrə dərsi uşaqların maraq və imkanları səviyyəsində maraqlı, oyun xarakterli, əyani vəsaitlərlə zəngin, səhnələşdirilmiş qaydada, yeri gələndə video-kasetdən istifadə etməklə təşkil edirəm. Fərdiləşdirmədən istifadə etməklə zəifləri yaxşılar, yaxşıları güclülər cərgəsinə çatdırmağa çalışıram. Hər birinə nəvazişlə, tə'rifləməklə yanaşıram ki, uşaq bildiyini çəkinmədən desin, dialoqa qoşulsun, başa düşmədiyini soruşsun, öyrənsin və yaxud səhvə e'tirazını bildirsin. Getdikcə onların müəllimə məhəbbəti artır. Müəllimi özlərinə ana, dost, sirdaş hesab edirlər. Ona görə də istər dərsdə, istərsə də sinifdənxaric tədbirlərdə fəal iştirak edirlər.

Mən çalışıram ki, kimliyindən asılı olmayaraq hər birinə eyni dərəcədə qayğı bəsləyim, hamını bir gözlə görüm. Uşaqlara münasibətdə ayrı-seçkilik olarsa, onlar müəllimə yaxınlaşmaz, ürəyini açmaz, bildiyini ifadə etməkdən çəkinər, küskünləşər, özünü kimsəsiz, tənha hiss edərlər. Adətən, belə uşaqlar kollektivdən kanarlaşmağa can atırlar. Belə şəraitdə tə'limdə müvəfəqiyyətdən də danışmağa dəyməz.

Müəllim-şagird münasibətinə bir misal 1992-ci il idi. Qarabağda müharibə gedirdi. Dərs dediyim uşaqlar XI sinfi bitirmişdilər. Oğlanlar əsgəri xidmətə çağırıldılar. Oğlanların hamısı bir nəfər kimi orduya getdi. Bir gün gördüm ki, qonşular arasında qarışıqlıq var. Düşündüm ki, nə isə olub. Qonşu qadına dedim özümü narahat hiss edirəm, görən uşaqlardan nə xəbər var. Dedi Əhliqar mənə bərk-bərk tapşırıb ki, bu əhvalatı Solmaz müəllimə demə. O, bizi balası qədər istəyir. Halı pis olacaq. Qadın oğluna deyib ki, 11 il sənin nə qədər müəllimin olub, onları demirsən Solmaz müəlliməni deyirsən. Əhliqar cavabında deyib ki, o unudulan müəllim deyil. Qəlbimizdə ona böyük məhəbbət var. Öyrəndim ki, uşaqlardan ikisi döyüşdə qəhrəmancasına şəhid olub, bir nəfəri də ağır yaralanıb. Həmin uşaqlardan ikisi milli qəhrəmandır, 4 nəfəri isə Hərbi Akademiyada oxuyur.

Üç il əvvəl -1997/1998-ci dərs ilində dərs dediyim I sinfə bir qız uşağı gətirdilər. Valideyni dedi ki, I sinifdə oxuyan bilmədiyi üçün sinifdə saxlanmasını məsləhət bilmişik ki, sizin sinfə düşsün. Uşaq çox ərköyün idi, həm də dərsi yaxşı qavraya bilmirdi. Müəllim-şagird münasibəti elə təşkil edildi ki, yaxşı nəticə alındı. Həmin uşağa indi onu tanıyanlar elə maraqla baxırlar ki, inana bilmirlər, necə oldu ki, o, bu cür tərbiyəli, həm də savadlı bir uşaq oldu.

Mən heç vaxt pis iş üstündə, dərsi öyrənmədiyinə görə şagirdi yoldaşları içində tənbeh etmirəm, şəxsiyyətinə toxunan söz işlətmirəm. Dərsi, tədbirləri elə maraqlı, elə tərbiyəvi təşkil edirəm ki, uşaq həm tərbiyəli, həm də savadlı olur, oxumağa meyli , marağı artır. Tə'limin keyfiyyətli, müasir tələblərə cavab verə biləcək dərəcəsinə çatması müəllim-şagird münasibətindən çox asılıdır.

1999/2000-ci dərs ilinin oktyabr ayında dərs dediyim IIIa sinifində sinifdənxaric oxu dərsində "Kitabi-Dədə Qorqud"-1300 yubileyinə həsr edilmiş tədbir keçirildi. Tədbirdə uşaqlar düşünülmüş, canlı şəkildə, tə'sirli çıxış edirdilər. Onların göstərdikləri səhnəciklər, oxuduqları, şe'rlər çox tə'sirli idi. Yeri gəldikcə "Dədə Qorqud" filmindən bə'zi hissələr video ilə göstərilirdi.

Mən dedim çalışıram ki, öyrənməyi, uşaqlara öyrədim. Uşaqlara çatdırılan ilkin nə varsa, heç də asanlıqla qavranılmır. Gərək onun yollarını axtarasan. Əziyyətə qatlaşmağı bacarasan. Ən başlıcası müəllim-şagird münasibətini düzgün təşkil edəsən.

# İBTİDAİ SİNİFLƏRDƏ TƏDRİSİN KEYFİYYƏTİNİ YÜKSƏLDƏK

*Şahid Əzimov*
***Səbail TTŞ metodmərkəzinin direktoru***

Rayonun 18 ümumtəhsil məktəbinin 34 ibtidai sinfində 8426 şagird oxuyur. Onlarla 32 ali və orta ixtisaslı müəllim məşğul olur.

Təhsil şöbəsinin metodik mərkəzi bu kateqoriyalardan olan müəllimlərlə məqsədyönlü və planlı iş aparır: müntəzəm olaraq məsləhətlər, seminarlar, açıq dərslər təşkil edilir, metodbirləşmələrin düzgün təşkilinə və səmərəli fəaliyyətinə nəzarət olunur, təcrübə mübadiləsi həyata keçirilir. Sinif müəllimləri tərtib edilmiş perspektiv plana əsasən vaxtaşırı ixtisasartırma kurslarına cəlb edilirlər.

Dərs ilinin əvvəlində ibtidai sinif müəllimləri üçün yeni proqram və dərsliklərlə işləməyin ilkin çətinlikləri və bə'zi xüsusiyyətlərinə aid seminarlar keçirilmiş, proqram və yeni dərsliklərin müəllifləri ilə onların görüşləri təşkil edilmiş, ortaya çıxan çətinliklərin aradan qaldırılması haqqında geniş fikir mübadiləsi aparılmış, müəllimlərə faydalı tövsiyələr verilmişdir.

Mə'lum olduğu kimi, metodbirləşmə müəllimlərin ixtisasını artırmaq sistemində metodik işin kollektiv təşkili formalarından biridir. Metodbirləşmələr müəllimləri pedaqoji elmlərin nailiyyətləri ilə tanış edir, ixtisas biliklərini təkmilləşdirməkdə onlara kömək göstərir.

Bunlara nail olmaq üçün biz, hər şeydən əvvəl, sinif müəllimləri ilə aparılan metodik işlərin təşkilinə, ilk növbədə məhz bütün məktəblərdə metodbirləşmələrin düzgün qurulmasına çalışırıq. Çalışırıq ki, bütün sinif müəllimləri metodbirləşmələr ilə əhatə edilsinlər: həm də adi dinləyici kimi deyil fəal iştirakçı kimi. Çalışırıq ki, hər bir metodbirləşmə üzvü olan müəllim ona tapşırılan sahənin işinin lazımi səviyyədə yerinə yetirilməsinə məs'uliyyət daşıdığını hiss etsin. Nəzərə alırıq ki, müəllimlərin metodbirləşmələrdə iştirakı və şəxsi təhsillə məşğul olmaları ixtisasartırma kursları arasındakı dövrdə onların metodik hazırlıqlarının artırılması kimi qiymətləndirilir.

Rayonun bir sıra məktəblərində öz işini müasir tələblər baxımından quran sinif metodbirləşmələri müvəffəqiyyətlə fəaliyyət göstərir. 236 nömrəli, (rəhbər Solmaz Məmmədova), 132 nömrəli (rəhbər Məlahət Şirinova), 190 nömrəli (rəhbər Məhəbbət Vəliyeva) və başqaları buna misal ola bilər. Həmin məktəblərdə tədbirlər bir qayda olaraq, hazırlıqlı və maraqlı keçirilir, qarşıda duran vəzifələr geniş müzakirə edilir, faydalı fikir mübadiləsi aparılır. Yerlərdə onların işləri ilə tanışlıq göstərir ki, qabaqcıl metodbirləşmələrin sənədləri, keçirilən iclasların protokolları, oxunmuş mühazirələrin mətnləri, öyrənilmiş qabaqcıl pedaqoji təcrübələrin materialları, dinlənilmiş açıq dərslərin icmalları, keçirilmiş tədbirlərin ssenariləri, şəxsi təhsil alanları və s. vaxtında hazırlanaraq xüsusi qovluqlarda toplanır və onların rəhbərlərinə saxlanılır.

Nümunəvi işi ilə fərqlənən metodbirləşmə rəhbərlərindən Solmaz Məmmədova (236 nömrəli məktəb) və Məlahət Şirinova (132 nömrəli

# İBTİDAİ SİNİFLƏRDƏ TƏDRİSİN KEYFİYYƏTİNİ YÜKSƏLDƏK

*Şahid Əzimov*
***Səbail TTŞ metodmərkəzinin direktoru***

Rayonun 18 ümumtəhsil məktəbinin 34 ibtidai sinfində 8426 şagird oxuyur. Onlarla 32 ali və orta ixtisaslı müəllim məşğul olur.

Təhsil şöbəsinin metodik mərkəzi bu kateqoriyalardan olan müəllimlərlə məqsədyönlü və planlı iş aparır: müntəzəm olaraq məsləhətlər, seminarlar, açıq dərslər təşkil edilir , metodbirləşmələrin düzgün təşkilinə və səmərəli fəaliyyətinə nəzarət olunur, təcrübə mübadiləsi həyata keçirilir. Sinif müəllimləri tərtib edilmiş perspektiv plana əsasən vaxtaşırı ixtisasartırma kurslarına cəlb edilirlər.

Dərs ilinin əvvəlində ibtidai sinif müəllimləri üçün yeni proqram və dərsliklərlə işləməyin ilkin çətinlikləri və bə'zi xüsusiyyətlərinə aid seminarlar keçirilmiş, proqram və yeni dərsliklərin müəllifləri ilə onların görüşləri təşkil edilmiş, ortaya çıxan çətinliklərin aradan qaldırılması haqqında geniş fikir mübadiləsi aparılmış, müəllimlərə faydalı tövsiyələr verilmişdir.

Mə'lum olduğu kimi, metodbirləşmə müəllimlərin ixtisasını artırmaq sistemində metodik işin kollektiv təşkili formalarından biridir. Metodbirləşmələr müəllimləri pedaqoji elmlərin nailiyyətləri ilə tanış edir, ixtisas biliklərini təkmilləşdirməkdə onlara kömək göstərir.

Bunlara nail olmaq üçün biz, hər şeydən əvvəl, sinif müəllimləri ilə aparılan metodik işlərin təşkilinə, ilk növbədə məhz bütün məktəblərdə metodbirləşmələrin düzgün qurulmasına çalışırıq. Çalışırıq ki, bütün sinif müəllimləri metodbirləşmələr ilə əhatə edilsinlər: həm də adi dinləyici kimi deyil fəal iştirakçı kimi. Çalışırıq ki, hər bir metodbirləşmə üzvü olan müəllim ona tapşırılan sahənin işinin lazımi səviyyədə yerinə yetirilməsinə məs'uliyyət daşıdığını hiss etsin. Nəzərə alırıq ki, müəllimlərin metodbirləşmələrdə iştirakı və şəxsi təhsillə məşğul olmaları ixtisasartırma kursları arasındakı dövrdə onların metodik hazırlıqlarının artırılması kimi qiymətləndirilir.

Rayonun bir sıra məktəblərində öz işini müasir tələblər baxımından quran sinif metodbirləşmələri müvəffəqiyyətlə fəaliyyət göstərir. 236 nömrəli, (rəhbər Solmaz Məmmədova), 132 nömrəli (rəhbər Məlahət Şirinova), 190 nömrəli (rəhbər Məhəbbət Vəliyeva) və başqaları buna misal ola bilər. Həmin məktəblərdə tədbirlər bir qayda olaraq, hazırlıqlı və maraqlı keçirilir, qarşıda duran vəzifələr geniş müzakirə edilir, faydalı fikir mübadiləsi aparılır. Yerlərdə onların işləri ilə tanışlıq göstərir ki, qabaqcıl metodbirləşmələrin sənədləri, keçirilən iclasların protokolları, oxunmuş mühazirələrin mətnləri, öyrənilmiş qabaqcıl pedaqoji təcrübələrin materialları, dinlənilmiş açıq dərslərin icmalları, keçirilmiş tədbirlərin ssenariləri, şəxsi təhsil alanları və s. vaxtında hazırlanaraq xüsusi qovluqlarda toplanır və onların rəhbərlərinə saxlanılır.

Nümunəvi işi ilə fərqlənən metodbirləşmə rəhbərlərindən Solmaz Məmmədova (236 nömrəli məktəb) və Məlahət Şirinova (132 nömrəli

yaradıcılıq axtarışı aparmaqla zəngin pedaqoci ustalığa malik olmalıdır. Göründüyü kimi, bütün qüvvəsini böyüməkdə olan nəslin tə'lim və tərbiyəsini kökündən yaxşılaşdırmağa, şagirdlərin fəal həyat mövqeli vətəndaşlar kimi yetişmələrinə, onların həyatın demokratik ən'ənələrinə uyğun qurulması yolunda mə'nəvi dəyələri yüksək qiymətləndirən şəxsiyyət kimi formalaşmalarına, bir sözlə təhsili yeni keyfiyyət səviyyəsinə qaldırmağa sərf edən hər bir müəllim belə bir dövrdə yalnız öz bilikləri çərçivəsində qapanıb qala bilməz.

İslahat bütün təhsil işçilərindən o cümlədən ibtidai sinif müəllimlərindən də profesionallıq tələb edir. Müasir məktəb müəlliminin gündəlik siyasi, elmi, pedaqoji və metodik informasiyalardan faydalanması olduqca vacibdir, çünki onun əməyinin nəticəsi öz pedaqoci ustalığını necə təkmilləşdirməsindən çox asılıdır.

Müşahidələr göstərir ki, hər bir müəllim öz hazırlığını yüksəltmək üçün həmkarları ilə bu və ya digər dərəcədə əlaqə saxlayır. Aqillər əbəbs yerə deməyiblər ki, "Bir-birinizin əlini sıxın və başqalarının fikirlərini öyrənməyə çalışın". Məktəbdə belə bir fəaliyyəti əlaqələndirən orqan metodik şura yanında yaradılan birləşmələrdir. Belə metodbirləşmələr müəllimlərlə aparılan metodik iş formaları içərisində xüsusi yer tutur.

Əsasnaməyə görə məktəbin paralel ibtidai siniflərində müəllimlərin sayı üç və daha artıq olduqda hər sinif üzrə məktəbdaxili metodbirləşmə yaradılır. Metodbirləşmənin yığıncağı təxminən ayda bir dəfə (dərs ili ərzində 8 dəfədən az olmayaraq) keçirilir. Metodbirləşmə xətti ilə görülən hər bir iş üəvlərin iştirakı ilə yığıncaqda müzakirə olunur və protokollaşdırılır.

Metodbirləşmənin işinin düzgün təşkili məktəbdə tə'lim-tərbiyə işinin yaxşılaşdırılmasına əsaslı şəkildə tə'sir göstərə bilər. Bu iş qarşılıqlı kömək və əməkdaşlıq şəraitində elə keçirilməlidir ki, o hər bir metodbirləşmə üzvünün pedaqoci ustalığının inkişafına müsbət tə'sir göstərsin.

Müşahidələr göstərir ki, metodbirləşmənin işinin ümumi göstərişlərdən ibarət mühazirələrin oxunuşunun müsbət nəticəsi çox az olur. Yaradıcılıqdan uzaq olan belə mühazirələr müəllimlərə, xüsusən gənc müəllimlərə demək olar ki, heç bir fayda vermir. Çox vaxt açıq dərslər təşkil olunur, lakin dərsdinləmənin məqsədi dinləyiciyə tam çatdırılmır. Nə məqsədlə məhz bu dərsin dinlənməsi, hansı cəhətlərə daha qabarıq diqqət yetiriləcəyi, nələri müşahidə etmək lazım olduğu aydınlaşdırılmır. Dərsin dinlənilməsi qarşıya qoyulan məqsədlə sıx bağlı olmalıdır Konkret məqsədlə dinlənilməyən dərsin təhlilindən, oradakı müsbət iş təcrübəsindən müəllimlər kifayət qədər bəhrələnə bilmirlər. Açıq dərslər adətən bir qayda olaraq oxu və riyaziyyat üzrə təşkil olunur. Digər fənlər üzrə belə dərslərin təşkilinə diqqət yetirilmir, yazı dərsi tamam unudulur.

Metodbirləşmə işinin təşkilində bə'zən müəllimin potensial imkanı, onun qüvvətli və zəif cəhətləri, hansı köməyə ehtiyacı olduğu nəzərə alınmır. Müəllimin müstəqil işinə rəhbərlik unudulur. Şagird və müəllim əməyinin əsas göstəricilərindən birinə-dəftərlərin vəziyyətinə diqqət yetirilmir, belə ki, onlara baxış keçirilmir. Bə'zən isə məktəbdə metodbirləşmənin "fəaliyyəti" yalnız tələm-tələsik doldurulmuş sənədlərdən ibarət olur.

Metodbirləşmənin işinin düzgün planlaşdırılması çox vacib şərtdir.

yaradıcılıq axtarışı aparmaqla zəngin pedaqoci ustalığa malik olmalıdır. Göründüyü kimi, bütün qüvvəsini böyüməkdə olan nəslin tə'lim və tərbiyəsini kökündən yaxşılaşdırmağa, şagirdlərin fəal həyat mövqeli vətəndaşlar kimi yetişmələrinə, onların həyatın demokratik ən'ənələrinə uyğun qurulması yolunda mə'nəvi dəyələri yüksək qiymətləndirən şəxsiyyət kimi formalaşmalarına, bir sözlə təhsili yeni keyfiyyət səviyyəsinə qaldırmağa sərf edən hər bir müəllim belə bir dövrdə yalnız öz bilikləri çərçivəsində qapanıb qala bilməz.

İslahat bütün təhsil işçilərindən o cümlədən ibtidai sinif müəllimlərindən də profesionallıq tələb edir. Müasir məktəb müəlliminin gündəlik siyasi, elmi, pedaqoji və metodik informasiyalardan faydalanması olduqca vacibdir, çünki onun əməyinin nəticəsi öz pedaqoci ustalığını necə təkmilləşdirməsindən çox asılıdır.

Müşahidələr göstərir ki, hər bir müəllim öz hazırlığını yüksəltmək üçün həmkarları ilə bu və ya digər dərəcədə əlaqə saxlayır. Aqillər əbəbs yerə deməyiblər ki, "Bir-birinizin əlini sıxın və başqalarının fikirlərini öyrənməyə çalışın". Məktəbdə belə bir fəaliyyəti əlaqələndirən orqan metodik şura yanında yaradılan birləşmələrdir. Belə metodbirləşmələr müəllimlərlə aparılan metodik iş formaları içərisində xüsusi yer tutur.

Əsasnaməyə görə məktəbin paralel ibtidai siniflərində müəllimlərin sayı üç və daha artıq olduqda hər sinif üzrə məktəbdaxili metodbirləşinə yaradılır. Metodbirləşmənin yığıncağı təxminən ayda bir dəfə (dərs ili ərzində 8 dəfədən az olmayaraq) keçirilir. Metodbirləşmə xətti ilə görülən hər bir iş üəvlərin iştirakı ilə yığıncaqda müzakirə olunur və protokollaşdırılır.

Metodbirləşmənin işinin düzgün təşkili məktəbdə tə'lim-tərbiyə işinin yaxşılaşdırılmasına əsaslı şəkildə tə'sir göstərə bilər. Bu iş qarşılıqlı kömək və əməkdaşlıq şəraitində elə keçirilməlidir ki, o hər bir metodbirləşmə üzvünün pedaqoci ustalığının inkişafına müsbət tə'sir göstərsin.

Müşahidələr göstərir ki, metodbirləşmənin işinin ümumi göstərişlərdən ibarət mühazirələrin oxunuşunun müsbət nəticəsi çox az olur. Yaradıcılıqdan uzaq olan belə mühazirələr müəllimlərə, xüsusən gənc müəllimlərə demək olar ki, heç bir fayda vermir. Çox vaxt açıq dərslər təşkil olunur, lakin dərsdinləmənin məqsədi dinləyiciyə tam çatdırılmır. Nə məqsədlə məhz bu dərsin dinlənməsi, hansı cəhətlərə daha qabarıq diqqət yetiriləcəyi, nələri müşahidə etmək lazım olduğu aydınlaşdırılmır. Dərsin dinlənilməsi qarşıya qoyulan məqsədlə sıx bağlı olmalıdır Konkret məqsədlə dinlənilməyən dərsin təhlilindən, oradakı müsbət iş təcrübəsindən müəllimlər kifayət qədər bəhrələnə bilmirlər. Açıq dərslər adətən bir qayda olaraq oxu və riyaziyyat üzrə təşkil olunur. Digər fənlər üzrə belə dərslərin təşkilinə diqqət yetirilmir, yazı dərsi tamam unudulur.

Metodbirləşmə işinin təşkilində bə'zən müəllimin potensial imkanı, onun qüvvətli və zəif cəhətləri, hansı köməyə ehtiyacı olduğu nəzərə alınmır. Müəllimin müstəqil işinə rəhbərlik unudulur. Şagird və müəllim əməyinin əsas göstəricilərindən birinə-dəftərlərin vəziyyətinə diqqət yetirilmir, belə ki, onlara baxış keçirilmir. Bə'zən isə məktəbdə metodbirləşmənin "fəaliyyəti" yalnız tələm-tələsik doldurulmuş sənədlərdən ibarət olur.

Metodbirləşmənin işinin düzgün planlaşdırılması çox vacib şərtdir.

Metodbirləşmə rəhbəri dinlənilən dərsdə diqqət yetiriləcək məsələyə dair təxmini yaddaş hazırlayıb, əvvəlcədən üzvlərə verə bilər:

Məqsəd: Müstəqil işlərin təşkili vəziyyətini müşahidə etmək.

1. Keçmiş material üzrə müstəqil işlərin təşkili.
2. Yeni biliyi mənimsəməyə hazırlıq prosesində müstəqil işlərin təşkili.
3. Yeni biliyin mənimsədilməsi prosesində müstəqil işlərin təşkili.
4. Dərsin möhkəmləndirilməsi prosesində müstəqil işlərin təşkili.
5. Müstəqil işlərin məzmunu və formasının (fərdi, qruplarla və ya bütün sinif üzrə) məqsədəmüvafiqliyi.
6. Müstəqil işlərin təşkili zamanı didaktik materiallardan istifadə.
7. Diferensiallaşdırma şagirdlərin qabiliyyətlərinin inkişaf etdirilməsi vasitəsi kimi və ya müstəqil işlərin təşkilində şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması və s.

Belə şəraitdə dinləyici passiv iştirakçı rolu oynamır, o nəyi isə öyrənməyə meyl edir.

Metodbirləşmələrin fəaliyyəti hazırkı dövrdə, əsasən, aşağıdakı istiqamətdə müəyyənləşdirilməlidir:

-Azərbaycan Respublikasının Təhsil sahəsində islahat proqramı və Təhsil Qanunlarından irəli gələn vəzifələrlə əlaqədar istifadə etmək üçün metodik tövsiyələr;

-fənlər üzrə elmi-nəzəri biliyin yüksəldilməsi, pedaqogika və psixologiyanın son nailiyyətlərinin tətbiqi, müəllimlərin şəxsi təhsilinə rəhbərlik;

-proqramın çətin bölmələrinin mənimsədilməsi ilə bağlı olan mübahisəli metodik problemlərin həlli;

-Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ sənədlərinin öyrənilməsi;

-tə'lim-tərbiyə prosesinin və şagirdlərin bilik və bacarıqları səviyyəsinin təhlili, qarşılıqlı nəzarətin təşkili;

-alternativ dərsliklərin tətbiqi nəticələrinin təhlili;

-qabaqcıl pedaqoci təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və təbliği;

-məktəbin tədris-maddi bazasının möhkəmləndirilməsi, I-IV sinif şagirdləri üçün kabinetlərin yaradılması;

-iste'dadlı şagirdlərin aşkar edilməsi və planlarla işin təşkili;

-dünya təhsil sistemindəki yeniliklər və s.

Konkret şəraitdən asılı olaraq, metodbirləşmənin iclasında hər dəfə 2-4 məsələ müzakirə etmək olar. Metodbirləşmədə müxtəlif iş formalarından (mühazirə oxumaq, çıxış etmək, fikir mübadiləsi aparmaq, dəftərlərə baxış təşkil etmək, dərsi dinləmək və təhlil etmək, tədris prosesində istfiadə etmək üçün tövsiyələr, icmal nümunəsi və ya didaktik materiallar hazırlamaq, sərgi üçün materiallar seçmək və s.) istifadə etmək məqsədəmüvafiqdir.

Metodbirləşmə rəhbərlərinə kömək məqsədilə aşağıdakı iş planının tərtibinə dair məsləhət, 2 məşğələ nümunəsi və tövsiyə edilən mövzular verilir. Yerli şəraiti və müəllimlərin hazırlıq səviyyəsini nəzərə alaraq, bölmələrdə, mövzuların seçlməsində və işin formalarında dəyişiklik aparmaq olar.

İş planının əvvəlində metodbirləşmə üzvləri haqqında bu mə'lumatın olması məqsədəmüvafiqdir.

| Sıra nömrəsi | Müəllimin soyadı və atasının adı | Dərs apardığı sinif | Müəllimin qüvvətli cəhətləri | Müəllimin çətinlik çəkdiyi sahələr | Cari ildə müəllim hansı mövzu üzərində işləyir |
|---|---|---|---|---|---|
| | | | | | |

II bölmədə dərs ilinin müvəffəqiyyətinin yekunu hər bir sinif üzrə konkret qeyd olunur (Sıra nömərsi müəllimin soyadı, adı və atasının adı; sinif şagirdlərinin sayı; ə'laçılar; "4"-"5", "3"-"4", "3", "3"-"2" qiymətlərlə oxuyanlar; müvəfəqiyyət faizi).

I və II bölmədə qeyd olunan mə'lumatlara əsasən nəticə çıxarılır və buna müvafiq vəzifələr qarşıya qoyulur. Həmin vəzifələr planda digər məsələlərlə yanaşı, III bölmədə -yeni dərs ilinin məqsəd və vəzifələri bölməsində öz əksini tapır. IV bölmədə ibtidai siniflərdə tə'limin nəzəriyyəsi və metodikası məsələləri üzrə keçirilən məşğələlərin planlaşdırılması göstərilir. Məsələn:

**1 sinif və 2-ci məşğələ-sentyabr və ya oktyabr**

| Sıra nöm-rəsi | Məşğələlərin mövzususu | İşin formaları | Müəllim-lərin müs-təqil işi | İstifadə etmək üçün ədəbiyyat | Məs'ul icrası | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1. | 1 sinifdə islahat: altıyaşlıların tə'liminin təşkili | Mə'ruzə və çıxışlar | "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nı (Bakı, 1999) oxuyub öyrənmək və iş prosesində nəzərə almaq | 1.Y.Ş.Kərimov. İslahatı uğurla başlayaq. "İbtidai məktəb və məktəbə qədər tərbiyə" curnalı. 1999 №2, səh.7-10. 2. Y.Ş.Kərimov. 1 sinifdə islahat. "Nasir", 1999. səh. 37-59. | | |
| 2. | 2. İlk sinif kollektivinin təşkili | Fikir mübadiləsi | Oxuyub öyrənmək və istifadə etmək: Y.Talıbov "İbtidai siniflərdə kollektivin təşkili". "İbtidai məktəb və məktəbəqədər tərbiyə" jurnalı, 1971, №2, səh. 6-10. | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3. | 3. Pedaqoji və metodik ədəbiyyat yeniilkləri | Metodbirləşmə rəhbəri və ya müəllimlərdən biri son üç ayda nəşr edilən pedaqoci və metodiki ədəbiyyatlar haqqında qısa mə'lumat verir. | | | | |

## III sinif. 5-ci məşğələ-dekabr və ya yanvar

| Sıra nömrəsi | Məşğələlərin mövzususu | İşin formaları | Müəllimlərin müstəqil işi | İstifadə etmək üçün ədəbiyyat | Məs'ul icrası | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1. | Müstəqil işlərin təşkili | Riyaziyyatdan açıq dərsin dinlənilməsi və müzakirəsi | Müstəqil işlərin təşkili üçün iki mövzuya dair didaktik materiallar hazırlamaq | 1. M.İsmixanov. "İbtidai tə'limdə şagirdlərin müstəqil işi". Bakı, 1978. 2. M.İsmixanov. "Tə'limdə şagirdlərin müstəqil işinə pedaqoji rəhbərlik (metodik tövsiyə)". Bakı, 1990. | | |
| 2. | 2. Kalliq-rafik səhv-lər və onlar üzərində iş | Ana dilində yazı dəftərlərinə baxış və nətijələrin müzakirəsi | Hüsnxət tə'liminə dair əyani vəsaitlərin hazırlanması | 1. Y.Ş.Kərimov. Latın qrafikalı Azərbaycan əlifbasının öyrədilməsi metodikası. 2. Y.Ş.Kərimov, F.Sadıqov. Hüsnxət tə'limi. "Maarif" 1996 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3. | 3. Diqqətin tərbiyə edilməsi | Fikir mübadiləsi | | 1. Ə.Əlizadə. Uşaqlarda diqqətin tərbiyə edilməsi. "Azərtədrisnəşr" 1962. 2. A.Lyublinskaya. Kiçikyaşlı məktəblilərdə diqqətin bə'zi xüsusiyyətləri. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" curnalı, 1974, №4, səh. 38-40. | | |

Hazırkı dövrdə IV bölmə üzrə aşağıdakı məsələlərə dair məşğələlərin təşkili tövsiyə olunur.

1) kiçikyaşlı məktəblilərə Dövlət rəmzlərinin öyrədilməsi;
2) tə'lim-tərbiyə prosesində Konstitusiyadan istifadə;
3) təhsilin humanistləşdirilməsi tə'lim-tərbiyə prosesinin keyfiyyətcə yeni mərhələyə qaldırılmasında mühüm amillərdən biri kimi;
4) iste'dadlı şagirdlərin aşkar edilməsi və onlarla işin təşkili təcrübəsindən;
5) ibtidai siniflərdə tə'limin səmərəliliyinin yüksəldilməsinin psixoloci (pedaqoci) əsasları;
6) şəxsiyyətin kollektivdə tərbiyəsi və ilk sinif kollektivinin təşkili;
7) tə'limin tərbiyələndirici xarakteri;
8) şagirdlərdə vətənpərvərlik və əməksevərlik tərbiyəsı;
9) tə'limdə inteqrasiya;
10) sinif-kabinetin təşkili tə'lim-tərbiyə işlərinin keyfiyyətini yüksəltməyin mühüm vasitəsidir.
11) şagirdlərin idrak fəallığı dərsin səmərəliliyinin artırılmasının əsas yoludur;
12) psixoloci müşahidə və şəxsiyyətin öyrənilməsində onun rolu;
13) ibtidai siniflərdə ekskursiyaların təşkili və keçirilməsi;
14) şagirdlərdə müşahidəçilik qabiliyyətinin inkişaf etdirilməsi;
15) uşaq ədəbiyyatının görkəmli nümayəndələri;
16) uşaq kitabları üzrə iş;
17) altıyaşlılarla tə'limin təşkili;
18) 1 sinifdə islahat: ona nədən və necə başlamalı?
19) şagirdlərdə dərslik üzrə müstəqil işləmək bacarıqlarının aşılanması;
20) ana dilinin tədrisi prosesində tətbiq edilən tə'lim metodları və onlardan istifadə;
21) Azərbaycan dili dərslərində müqayisə priyomundan istifadə;
22) Yazılışı çətin sözlər üzərində iş;

23) sinifdənxaric qiraətin təşkilinə dair;

24) riyaziyyatın tədrisində problemli yanaşma;

25) riyaziyyat dərslərində diferensiallaşdırma;

26) məsələ həlli prosesində analiz və sintez;

27) şifahi hesablama bacarıqlarının aşılanmasına dair;

28) riyaziyyat tə'limində əyanilik;

29) ibtidai siniflərdə didaktik oyunlar və ya uşaq şəxsiyyətinin formalaşmasında oyunların rolu;

30) təbiətşünaslığın tədrisində təbiəti mühafizə məsələləri;

31) Təbiətşünaslıq və əmək tə'limi dərslərinin təşkilində yerli materiallardan istifadə;

32) əmək tə'limi dərslərindən peşələrə marağın yaradılması;

33) incəsənət haqqında müsahibələrin təşkilinə dair;

34) müşahidələr və onlardan mövzu üzrə rəsm məşğələlərin təşkilində istifadə;

35) Dekorativ rəsmdə milli naxışlardan istifadə;

36) bədən tərbiyəsindən nəzəri mə'lumatların verilməsində illustrasiya və demonstrasiyadan istifadə;

37) ümumiləşdirici dərslərin təşkili;

38) bilik, bacarıq və düzgün qiymətləndirilməsi tə'lim keyfiyyətinin yüksəldilməsinin mühüm vasitəsidir;

39) ibtidai siniflərdə sinifdənxaric tədbirlərin keçirilməsi təcrübəsindən.

"Məktəb islahatının indiki mərhələsində metodbirləşmələr eyni ixtisaslı müəllimlərin qüvvə, imkan və qabaqcıl təcrübə faktlarını əlaqələndirib vahid məqsəd naminə istiqamətləndirən məktəb qurumuna çevrilməlidir. Metodbirləşmələr elmi-metodik yeniliklərin öyrənilib dərk edildiyi, fənnin tədris yollarını sistemləşdirən, reallaşdıran məktəb kafedrası kimi seçilib fərqlənməlidir". Ş.Məmmədov "Metodbirləşmə: Reallıq", "Azərbaycan müəllimi" qəzetiG 19-25 avqust, № 33 (7828).

# İBTİDAİ SİNİFLƏRDƏ MUSİQİ TƏ'LİMİNİN MƏZMUNUNA DAİR

*Qorxmaz Abdulla*
*Cəbrayıl RTŞ-nin inspektoru*

Ölkəmizdə tam müstəqil, demokratik və dünyəvi dövlət quruculuğunun bugünkü mərhələsində Azərbaycan məktəbinin qarşısında qlobal vəzifələr durur. Müstəqillik və suverenlik həm də hər bir vətəndaşın sərbəstliyidir, azadlığıdır; daha çox öyrənmək, Vətənə daha çox gərəkli olmaq,ümumi işimizə, inkişafımıza təkan vermək imkanıdır. İnsanın müstəqilliyi, hər şeydən əvvəl, mə'nəvi-psixoloji anlayışdır.

İnsanın müstəqilliyinin ən mühüm amillərindən biri onun yüksək dünyagörüşə malik olması, öz milli mədəniyyəti , ədəbiyyatı, incəsənəti haqqında davamlı və məhsuldar biliklər sisteminə yiyələnməsidir, yaşadığı məmləkətin siyasi, sosial həyatında, dövlət quruculuğunda baş verən dəyişiklikləri şüurlu dərk etməsidir. Bu keyfiyyətlərin ilk rüşeymi, şübhəsiz, məktəblərdə qoyulur. Təhsil Qanunumuzda deyildiyi kimi, təhsil sisteminin əsas vəzifəsi dərin, hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, mütərəqqi dünyabaxışa malik olan və onu daim inkişaf etdirməyə sə'y göstərən şəxsiyyət formalaşdırmaq, söykökünə bağlı, xalqının milli, əxlaqi, hümanist, mə'nəvi dəyərlərinə, bədii zövqə, mədəni vərdişlərə dərindən yiyələnən, onları qoruyan və davam etdirən vətəndaşlar yetişdirməkdir.

Bunlar ümumtəhsil məktəblərimizdə həyata keçirilən çoxpilləli tərbiyə işinin digər sahələrilə yanaşı, yeniyetmələrin etik-estetik tərbiyəsinin, bədii zövqünün daim təkmilləşdirilməsilə şərtlənir. Bəllidir ki, uşaqların bədii duyumu, hiss və duyğuları, qavrama və qavrayışları məktəbəqədər müəssisədə "tumurcuq" turur, məktəb illərində "gül" açmağa, şaxələnməyə başlayır. Odur ki, uşaqların bədii yaradıcılığının fasiləsiz inkişaf etdirilməsi: hər hansı musiqi alətində çalmaq, rəqs etmək, ifadəli şe'r söyləmək, bədii əsərlərin obrazlarını təqlid etmək, müxtəlif illüstrasiyalar uydurmaq kimi məşğuliyyət növlərilə əhatə olunmaları diqqət mərkəzində saxlanmalıdır. Gəlin unutmayaq ki, bədii yaradıcılıq prosesilə bağlı məşğələlər, müsamirələr, müsabiqələr, kültəvi tədbirlər uşaqlara öz qabiliyyət və iste'dadlarına inamını artırır. Axı məsələ bədii qabiliyyətin aşkarlanması ilə bitmir, gərək onun fasiləsiz inkişafına, formalaşdırılmasına və cilalanmasına qayğı göstərəsən.

Bədii yaradıcılıq uzunmüddətli prosesdir. Erkən yaşlarda uşaqlarda gözə, tədriclə boy atmağa başlayan qabiliyyətlər müxtəlif xarakterli olur. Bə'ziləri musiqiyə, bə'ziləri təsviri sənətə, bə'ziləri incəsənətin digər sahələrinə maraq göstərir. İste'dad yanğısının müəyyən məcraya yönəldilməsində musiqi dərslərinin imkanları daha çoxdur. Bu, həm də zəngin, tükənməz musiqi sərvətimizin dadı, duzu, tacı olan ulu muğamlarımızın ibtidai siniflərdən öyrənilməsi zəruriyyətini ortaya atır. Məqamların

tədrisi ideyası birdən-birə meydana çıxmamış, uzun-uzadı mübahisələr doğurmuşdur. Hələ bu bir yana, məktəblrimizdə bir müddət nümunəvi musiqi proqramının olmaması da müəllimlərimizi ciddi çətinliklər qarşısında qoymuşdur.

İbtidai məktəblər üçün ilk musiqi proqramı 1923-cü ildə tərtib edilmişdir. Ancaq burada uşaqların yaş səviyyəsi didaktik amil kimi əsas götürülmüşdü. Proqramın bir qüsuru da məhəbbət mahnılarına üstünlük verilməsi idi. 1931-ci ildə çapdan çıxmış musiqi proqramı 1940-cı ildədək işləmiş, bir il sonra qismən dəyişilmişdir. Bura şagirdlərin vətənpərvərlik, dostluq,birlik, həmrəylik tərbiyəsilə bağlı mahnılar əlavə edilmişdir. İbtidai siniflər üçün sonrakı proqramlarda də ən'ənəvi çatışmazlıqlar, məhdudluq təkrar olunmuşdur. 1951-ci ildə bəstəkar A.Gəray tərəfindən hazırlanmış proqram isə şagirdlərin vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi baxımından əvvəlkilərdən bir qədər fərqlənirdi. "Yaşa, Azərbaycan", "Mingəçevir", "Bakı", "Vətən oğlu", "Vətən haqqında mahnı", "Sülhün səsi", "Mən sülhə səs verirəm" kimi oynaq, şən əhvali-rühiyyə oyadan mahnıları balacalar həvəslə əzbərləyib öyrənirdilər. Azərbaycan məktəblərində uzun illər həmin proqramdan istifadə olunması təsadüfi deyildi. Sonrakı musiqi proqramları bu "çeşmədən" su içsə də, birtərəfli və nöqsanlı olmuş, ya şagirdlərin yaşı, ya fərdi xüsusiyyətləri, ya qavrayış səviyyəsi... ya mövcud imkan və şərait nəzərə alınmamışdı. Onları və digər nöqsanları nəzərə alaraq respublika Maarif Nazirliyi tərəfindən 1970-ci ildə yeni musiqi proqramı hazırlanmışdır. O, əvvəlkilərdən əsaslı surətdə fərqlənmişdir. Belə ki, repertuar genişlənmiş, son vaxtlar bəstələnmiş uşaq mahnıları, vokal və instrumental əsərlər əks olunmuş, şagirdlərin yaş xüsusiyyətləri, maraq və qavrama imkanları nəzərə alınmış, mahnıların hansı məcmuədə nəşr edildiyi göstərilmişdir... Bu mahnıların içərisində şagirdlərin vətənpərvərlik tərbiyəsinin inkişafında həlledici rol oynayan musiqi əsərləri də vardı (bax: O.Rəcəbov, F.Sadıqov "Musiqi dərslərində tərbiyə işinin təşkili" Metodik vəsait, Bakı-1986).

Yeri gəlmişkən, proqramlarda bəstəkar mahnıları, "Rast", "Şur", Bayatı-Şiraz" ladlarında yazılmış əsərlər çoxluq təşkil edirdi. Coşğun əhvali-ruhiyyə təlqin edən, mübarizəyə, qəhrəmanlığa, qabiliyyətə səsləyən, qurub-yaratmağa çağıran , şagirdlərin milli vətənpərvərlik tərbiyəsini coşduran "Çahargah" ladında bəstələnmiş bir mahnıya belə rast gəlmirik.

Respublikada ilk musiqi dərsliyi isə pedaqoji elmlər namizədi N.Məlikməmmədov tərəfindən yazılmışdır. Həmin dərslikdə nəzərdə tutulan mahnılar şagirdlərin yaş senzinə uyğunluğu ilə fərqlənirdi. Ancaq bu və ya digər "sürüşkən" musiqi proqramlarında, istərsə də musiqi dərsliklərində mə'nəvi sərvətimiz olan muğamların tədrisi bir növ diqqət mərkəzindən kənarda qalmışdı. İbtidai məktəblər üçün hazırlanmış proqramda isə (xüssuilə V-VIII sinif üçün proqramda, Bakı —1970) bu çatışmazlıq aradan qaldırılmışdır. Hazırda məktəblərimizdə fəaliyyət göstərən "İbtidai siniflərin proqramı"nda (Bakı, "Gənclik"-1996) professional musiqi əsərlərinin yaradılmasında tükənməz xəzinə olan ulu

muğamlarımızın tədrisinə və dinlənilməsinə saatlar ayrılmışdır. Şagirdlərimiz "Rast", "Şur", "Bayatı-Şiraz", "Segah", "Çahargah", "Şüştər", "Humayun" muğamlarının strukturu, lad quruluşu haqqında müəyyən təsəvvür əldə etmək imkanı qazanırlar. Bu, çox vacib məsələdir. Çünki musiqi əsərlərində muğamlarla ilk tanışlıq xarakteri daşıyan hər hansı mövzu orijinal musiqi tədqiqatçısı, pedaqoji elmlər doktoru, professor Fərahim Sadıqovun tə'birincə desək, şagirdlərin daxili aləmini zənginləşdirir, bədii zövqlərini, duyğularını, qavrayışlarını tənzimləyir, dünyagörüşlərini formalaşdırır.

I-IV siniflərdə birdən-birə muğam dəstgahlarının tam öyrənilməsinə girişmək heç bir səmərə verməz, əksinə uşaqları intəhasız sənət dünyasından uzaqlaşdırar, yorar, bezdirər. Odur ki, musiqi-nəğmə müəllimləri bu cəhəti nəzərə almaqla mövcud proqramlara yaradıcı yanaşmalı, zəngin, çoxçalarlı muğam elementlərini xalqımızın istək-arzularının tərcümanı əhval-ruhiyyəsini, dostluğa, yoldaşlığa, cəmiyyətə münasibətini şücaət və qəhrəmanlığını, vətənpərvərlik duyğularını özündə yaşadan xalq musiqisilə əlaqələndirməlidir.

Canlı, real müqayisəyə əsaslanan tədris prosesi uşaqların muğam ladları, xalq mahnıları və bəstəkar mahnıları arasındakı yaxınlığı, eləcə də incə fərqləri əyani surətdə qavrayıb yadda saxlamaqda e'tibarlı mənbə rolunu oynayır.

I sinifdən e'tibarən tembr, tepm, dinamika, rekmetr, ritm, melodiya, lad ikmi musiqi ifadə vasitələri haqqında şagirdlərdə aydın təsəvvür yaradılmalıdır. Bu cəhətdən O.Rəcəbovun və F.Sadıqovun birlikdə yazdıqları "Musiqi dərslərində tərbiyə işinin təşkili" adlı metodik tövsiyə müəllimləri düzgün istiqamətləndirir, onları lazımi biliklərlə silahlandırır. Temp-mahnının ifasının sür'ət dərəcəsidir. Dinamika – mahnının düzgün səslənməsidir. Tembr-musiqinin müxtəlif çalğı alətində səslənməsi, daha doğrusu, səs effektidir. Regmetr müğənninin və ya musiqi alətinin səs imkanlarının göstəricisidir. Ritm-musiqi səslərinin, avazının müəyyən bir ölçüyə, qəlibə, tabe etdirilməsidir. Lad musiqi əsərinin mənbəyi, yatağı, köküdür... Belə yığcam anlayışların müntəzəm vərdişə çevrilməsi musiqi əsərlərinin mə'nəvi-estetik mahiyyətini, ideyasını başa düşməkdə və ondan bəhrələnməkdə çox vacib şərtdir, başlıca amildir. Bunları bilən, qavrayan şagird müğumların tədrisində əsas dayaq rolunu oynayan dəraməd, rəng və təsnifin məzmununu öyrənməkdə o qədər də çətinlik çəkmir. Xatırladaq ki, dəraməd (müqəddəmə) –aid olduğu muğamın əvvəlində çalınır, həmin məqamın müvafiq şö'bələri barəsində rabitəli təsəvvür oyadır. Rəng-muğamın şö'bələri arasında ifa olunaraq müəyyən ahəngdarlıq yaradan melodyalar sistemidir. Təsnif isə şö'bələr arasında oxunan bitkin, dramatik, süjetli mahnıdır. O, bütövlükdə muğamın estetik-emosional tə'sir qüvvəsini artırmağa, xanəndənin səs imkanlarını nümayiş etdirməyə xidmət edir. Dəramədsiz, rəngsiz, təsnifsiz muğamlar bitkin təsəvvür vermir, necə deyərlər, dadsız-duzsuz, bəsit nəsr əsərinə bənzəyir. Müəllim tədris prosesində mütləq xatırlatmalıdır ki, Azərbaycan muğamlarının forma və struktur yaxınlığına baxmayaraq, onlar özünəməxsusluğu, məzmun və mahiyyəti, estetik-

emosional tə'siri e'tibarilə biri digərindən fərqlənir. Dahi bəstəkar Ü.Hacıbəyovun "Azərbaycan xalq musiqisinin əsasları" adlı əsərində deyildiyi kimi, bədii-ruhi tə'sir cəhətindən "Rast" dinləyicidə mərdlik və gümrahlıq hissi; "Şur" şən, lirik əhvali-ruhiyyə; "Segah" məhəbbət hissi; "Şüştər" dərin kədər; "Çahargah" həyəcan və ehtiras; "Bayatı-Şiraz" qəmginlik, "Humayun" isə dərin kədər hissi oyadır.

Ümumtəhsil məktəblərində şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin və imkanlarının üzə çıxarılıb inkişaf etdirilməsində qarşıya çıxan əsas çətinliklərdən biri (bəlkə də birincisi) kadrlarla bağlıdır.

Mən bir müddət Cəbrayıl rayonunun məktəblərində musiqi-nəğmə dərslərini aparmaqla bərabər, həm də hər il iste'dadlı uşaqların rayon-baxış-müsabiqəsini keçirən münsiflər hey'ətinin üzvü kimi, musiqi dərslərinin bu sahədə sadə səriştəsi olmayan müəllimlərə tapşırılmasının şahidiyəm. Həmin dərslər, adətən, səs kəsmək, saat düzəltmək, tə'miat xatirinə verilir( xüsusilə kənd rayonlarında) . Şagirdlərin bədii yaradıcılığını inkişaf etdirən yüksək mə'nəvi—əxlaqi, etik estetik keyfiyyətlər formalaşdıran, vətənpərvərlik tərbiyəsinin mühüm amili olan ciddi məsələyə belə qeyri- ciddi, formal münasibət bağışlanmaz haldır. Məktəblərdə musiqi fənninin fizika, kimya, riyaziyyat, hətta əmək tə'limi, bədən tərbiyəsi müəllimlərinə peşkəş edilməsi kimi zərərli praktikaya son qoyulmasının vaxtı çatmamışdırmı? Hələ bu harasıdır? Rayon məktəblərinin əksəriyyətində adicə valçaldıran belə yoxdur. Bunların nəticəsidir ki, çox vaxt həmin "yedək" saatları ya boş keçir, ən yaxşı halda isə müəllim musiqi dərsini öz fənninə "yamayır". Yaxşı ki, neçə illər bundan əvvəl mövcud boşluğu doldurmaq üçün N.Tusi adına APU-da "Musiqi və oxuma" fakültəsi açmağı icazə verildi. Oraya vur-tut 50 nəfər qəbul edildi. Sonralar bu rəqəm artırılmaqdansa, minimuma endirildi. Üstəlik də mə'zunların çoxu tə'yinat yerinə gedib çıxmadı. Hazırda həmin fakültə fəaliyyətdədir. Təəccüblüdür ki, burada gələcəyin musiqi müəllimlərinə muğamlarımızın barəsində lazımi anlayışlar verilmir.

Bə'zi özəl ali məktəblərdə musiqi müəllimləri hazırlayan fakültələrin açılması da müsbət haldır. Yaranmış vəziyyətdən çıxış yolunu bir də ehtiyac duyulan yerlərdə musiqi-nəğmə dərslərini ixtisas təhsilli musiqiçilərə, vokalistlərə tapşırmaqda görürəm. Mövcud tədris proqramında I sinifdən başlamış XI sinif də daxil olmaqla musiqi fənnini həftədə hər sinifdə 2-3 saata qaldırmaqla ali və orta ixtisas təhsilli mütəxəssisləri ümumtəhsil məktəblərinə gətirmək, orada möhkəmlətmək mümkündür.

Bir neçə kəlmə də yuxarıda adını çəkdiyim, hal-hazırda məktəblərimizdə istifadə olunan "İbtidai siniflərin proqramı"nın musiqi bölməsi haqqında. Deyim ki, bu proqram xeyli təkmilləşdirilmiş və yeniləşdirilmiş nəşrdir. Elmi-nəzəri, didaktik, sanbalı ilə əvvəlkilərdən köklü surətdə seçilir. Belə ki, proqram beynəlxalq standartlara uyğunlaşdırılmış, "musiqinin həyatla əlaqəsinin möhkəmləndirilməsini tə'min etmək məqsədilə humanizm, beynəlmiləlçilik, vətənpərvərlik və optimizmi əks etdirən əsərlər daxil edilmişdir. Materillar uşaqların yaş xüsusiyyətləri və imkanları nəzərə alınaraq seçilmişdir". Ayrı-ayrı siniflər üzrə musiqi-nəğmə dərsləri

aşağıdakı fəaliyyət dairəsini əhatə edir: musiqi dənlənilməsi, onun qavranılması, mahnı oxumaq, not savadına yiyələnmək, musiqili –ritmik hərəkətləri yerinə yetirmək, musiqi alətlərində çalmaq.

Proqramın, məncə, əsas nöqsanı uşaqların bədii yaradıcılıq qabiliyyətinin formalaşmasında, hərtərəfli inkişafında, soykökünə folklor nümunələrinə bağlılıq, vətənpərvərlik, təəssübkeşlik, mə'nəvi –əlaqi dəyərlərin əks olunmasında tükənməz mənbə sayılan muğamlarımızın öyrənilməsinə çox az yer verilməsidir. Muğamlarla ilk tanışlıq yalnız II sinfin I rübündən "Bayatı-İsfahan" rənginin dinlənilməsilə başlanır. III rübdə "Rast"ın mayəsinlə davam etdirilir. III sinfin II rübündə iki dəfə "Bayatı-Şiraz" muğamına, III rübdə "Şüştər" dəramədinə müraciət olunur. IV siifdə bu məsələyə cəmi iki dəfə S.Q.Hüseynlinin "Çahargah" fortepiano pyesi, C.Hacıyev 4-cü simfoniyadan I hissənin ekspozisiyası və "Bayatı-Şiraz" muğamı ilə müqayisə qayıdılır. Ümumiyyətlə, ibtidai sinfin proqramında 4 dəfə "Bayatı-Şiraz" 2 dəfə "Rast"a, 1 dəfə "Şüştərə" müraciət olunur. Qalan muğamlarımız haqda anlayış verilmir. Halbuki yaş və qavrama xüsusiyyətinə görə ibtidai siniflərin ritmik muğamların öyrənilməsi daha məqsədəuyğunur. Yeri gəlmişkən , dinləyicidə yüksək emosional hiss-həyəcan oyadan mərdlik, mərdanəlik yenilməzlik, qələbə əzmi, döyüşkənlik ruhu, vətənə, xalqa, millətə sonsuz sevgi, torpaqcanlılıq, təəssübkeşlik, elə-ulusa sıx tellərlə bağlılıq duyğuları aşılayan "Çahargah" muğamının ayrı-ayrı şö'bə, dəraməd və təsniflərinin proqrama salınması ilə razılaşmaq qeyri-mümkündür. Proqramda şagirdlərin vətənpərvərlik tərbiyəsinə müsbət tə'sir göstərən mahnılar da çox seyrəkdir (I sinifdə 3, II sinifdə 4, III sinifdə 4, IV sinifdə isə 6 mahnı).

Bunun əvəzində balacaların yaşına uyğun gəlməyən çoxlu nəzəri mə'lumatlar, improvizasiya təmrinlərinin praktik icrası tələb olunur. Həftədə cəmi bir saat ayrılan musiqi dərsində uşaqları bu dərəcədə yükləmək didaktik prinsiplərə ziddir. Odur ki, musiqi proqramlarına yenidən baxılmalı, şagirdlərin vətənpərvərlik tərbiyəsində başlıca amil sayılan, milli-mə'nəvi sərvətimiz, zövq-səfa mənbəyimizin klassik muğamlarımızın tədrisinə diqqət artırılmalıdır.

## KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN HALALLIQ TƏRBİYƏSİ

***Şəfiqə Tahirova***
***"Naxçıvan" Universitetinin müəllimi***

Uşaqlar məktəbə bir mə'bəd kimi baxır, min bir arzu və diləklə bu mə'bədə gəlirlər. Onlar milli əxlaqımızın nəcib sifətlərinə məhz bu mə'bəddə yiyələnirlər. Məktəbə gələndən sonra onların qarşısında yeni bir aləm açılır. Bu aləmdə uşaqlar yeni biliklər əldə etməyə, milli əxlaq normalarımıza, milli adət və ən'ənələrimizə yiyələnməyə çalışırlar.

İnsan həyatının ən parlaq, təkrarolunmaz və daim yadda qalan dövrü uşaqlıq dövrüdür. Onların gələcəkdə necə insan olacaqları bu illərdə onları əhatə edən aləmin və adamların şüur və düşüncələrinə necə daxil olmasından çox asılıdır.

Uşaqları sevən, onlara qəlbən bağlı olan hər bir müəllim çalışmalıdır ki, məktəbə gəldiyi ilk gündən e'tibarən uşaqlarda yaxşı oxumaq istəyi ilə yanaşı, halallıq tərbiyəsinin də düzgün gəşəkkül tapmasına nail olsun.

Uşaqlarda halallığın tərbiyə edilməsi onlarda xeyirxahlığın, humanizmin, nikbinliyin, qayğıkeşliyin, dostluğun, sədaqətin tərbiyə edilməsi deməkdir. Məhz buna görə də hələ kiçik yaşlarından hər bir uşaqda halallıq duyğusunun kamilləşməsi vacib vəzifə olmalıdır. Bu isə ibtidai sinif müəllimlərindən yüksək fəallıq, şəxsi ləyaqət, vicdan və düzlük tələb edir.

Uşaqlar müəllimin bütün tapşırıqlarını səy'lə yerinə yetirməyə çalışırlar. Onların düzgün və səliqəli icrasına nəzarət müəllimin üzərinə düşür. Bu isə hər bir müəllimdən işinə halallıqla yanaşmağı tələb edir. Müəllim uşaqları "yaxşı" və "pis" uşaqlara ayırmamalı, onların hər birisinə yüksək insani hisslərlə yanaşmalıdır.

Uşaqlarda hələ kiçik yaşlarından e'tibarən halallıq tərbiyəsinin əsas ünsürləri olan yoldaşlıq, səmimilik, səliqəlilik, əliaçıqlıq, qayğıkeşlik, işgüzarlıq kimi nəcib əxlaqi normaların bünövrəsi qoyulur. Tərbiyə işini bu əsas üzərində elə qurmaq lazımdır ki, uşaqlarda yüksək əxlaqi-mə'nəvi normalar özünü biruzə versin. Bu keyfiyyətlər içərisində halallıq xüsusi əhəmiyyət kəsb edir.

Müəllimin sənətkarlığının, ustalığının, mə'rifətinin başlıca cəhəti məktəbə gəldiyi ilk gündən hər bir şagirdi hərtərəfli öyrənib, ona düzgün istiqamət verməsidir. Bu gün halal övladlar yetişdirmək müəllimin fərəhi və xoşbəxtliyi deyil, eyni zamanda onun mə'nəvi borcludur. Bu gün müəllim Azərbaycan dövlətinin qurucularını yetişdirir. Müstəqil dövlətimizin daimiliyi, bütövlüyü hazırda tərbiyə etdiyimiz halal övladlardan asılıdır. Məhz buna görə də onların tərbiyəsində hələ kiçik yaşlarından səhvə yol vermək olmaz. Görkəmli mütəfəkkir Sə'di Şirazi "Gülüstan" əsərində yazır:

Yaş çubuğu istəsən hər şəkilə salarsan,
Od qurudub düzəldər o çubuğu nəhayət.

Bu gün halallıq normalırna yiyələnməyən hər bir uşaq, bizim sabahkı göz yaşımız, ağrı-acımız, cəmiyyətimizin tənəzzülü və fəlakəti deməkdir.

Müəllimin xoş və səliqəli rəftarı, uşağın fərdi xüsusiyyətlərini nəzərə alması, onlara yaş və anlaq səviyyələrinə uyğun tələblər verə bilməsi uşaqlarda halallıq tərbiyəsinin inkişafına müsbət tə'sir göstərir.

Təəssüflə qeyd etmək lazımdır ki, bunu bə'zi sinif müəllimləri lazımınca qiymətləndirmir və məktəbin tələblərinin yerinə yetirilməsi qayğısına qalmırlar. Onlar yaddan çıxarırlar ki, tərbiyə prosesinin ilk rüşeymləri məhz ibtidai siniflərdə formalaşır. Əgər biz qarşımıza cəmiyyətimizin gələcəyi üçün halal övladlar yetişdirmək məqsədini qoymuşuqsa, bunun üçün bünövrəyə xüsusi fikir verməliyik. Belə olmazsa, işin sonrakı mərhələsinin uğuruna ümid bəsləməyə dəyməz.

Uşaqlar müəllimin saxtakarlığını tez sezirlər. Bə'zi sinif müəllimləri müəyyən tə'riflərə layiq görülmək üçün tə'lim prosesində halallıq normalarına əməl etmir, şagird qiymətlərini sün'i surətdə şişirtməklə

onların gözləri qarşısında halallıqdan uzaqlaşırlar. Valideyndən qəbul etmiş "hörmətə" görə şagird gah "gül"lü, gah "ulduz"lu, gah da ki, "bayraqlı"lı "5"lər alır. Bununla da halal müəllim əməyinə, artıq tamah ucundan haram qatırlar. Müəllim verdiyi qiymətə görə məs'uliyyət daşımalıdır. Çünki ibtidai sinif müəllimlərinin qeyri-obyektiv qiymətləri çox vaxt şagrdlərin halallıq tərbiyəsinə mənfi tə'sir edir. Beləliklə, müəllimin tə'lim və tərbiyə işinə laqeyd münasibəti, uşağın əqidəsində onun həqiqətini yalana çevirir, söz və əməlinin vəhdətini pozur. Bununla əlaqədar atalarımızın bir müdrik kəlamı yada düşür: "Adamın dili və ürəyi bir olmalıdır".

Bu vəhdətin pozulmaması üçün müəllim daim öz üzərində çalışmalı, metodik və nəzəri hazırlığını artırmalı, işinə məs'uliyyətlə yanaşmalıdır.

İnkar etmək olmaz ki, respublikamızda işinə halal münasibət bəsləyən, sənətinə, peşəsinə qəlbən bağlı olan sinif müəllimləri də çoxdur. Bakı şəhəri Lökbatan qəsəbəsindəki 288 nömrəli orta məktəbin müəllimi Pərvanə Rüstəmova, Nəmisi rayonu Namiq Axundov adına 1 nömrəli orta məktəbin sinif müəllimi Zərifə Şükürova, Yasamal rayonu 12 nömrəli orta məktəbin müəllimi Ədilə Qurbanova, İsmayıllı rayonu Hacıhətəmli kənd orta məktəbinin müəllimi Nuridə Kərimova buna misal ola bilərlər.

Bə'zi məktəb rəhbərləri də ibtidai sinif müəllimlərinin işinə başdansovdu münasibət bəsləyirlər. Onlar ibtidai siniflərin proqram və dərsliklərinin məzmununu öyrənməyə çalışmır, müəllimlərin dərslərini təsadüfdən-təsadüfə dinləyir, dinlənilmiş dərslərin müzakirəsini keçirmirlər. Gənc müəllimlərə lazımi tövsiyələr verilmir, sinif birləşmələrinin işi düzgün istiqamətləndirilmir və s. Bu baxımdan Lökbatan qəsəbəsindəki 288 nömrəli orta məktəbin tə'lim-tərbiyə işləri üzrə direktor müavini, xalq maarifi ə'laçısı, Səməd Səmədovun iş üsulunu məktəb rəhbərləri üçün örnək hesab etmək olar.

İbtidai siniflərdə halallıq tərbiyəsinin inkişafında "oxu" dərsliklərinin geniş imkanları vardır. III sinif üçün oxu dərsliyində (müəllifi Y.Kərimov) "Azərbaycan Milli Ordusu", "Ordum varsa, urdum var", "Müharibə olmasa", "Azad və müstəqil Azərbaycan", "Milli Dirçəliş günü", "Dost dosta tən gərək", "Ana ürəyi", "Vətən onu qoruyanındır", "Qaçaq Nəbi" və s. IV sinfin "Oxu" dərsliyində (müəllifi N.Abdullayev) "Vətən" (Nigar Rəfibəyli), "Torpaqdan pay olmaz", "Qəhrəmanlar ölkəsidir Vətənim", "Türk ölər, amma düşmənə təslim olmaz", "O gecə" (Mahmud Mayıloğlu), "Ağla qərənfil, ağla" (M.Aslan), "Can Azərbaycan" (Əhməd Cavad), "Azərbaycan bayrağı" (C.Cabbarlı) və s. mətnlərin əsasında halallıq tərbiyəsinin əsas ünsirləri olan səmimilik, dostluq, vətənpərvərlik, qəhrəmanlıq, xeyirxahlıq, əməksevərlik, milli birlik duyğusu və s. kimi nəcib əxlaqi sifətlər aşılamaq mümkündür. Halallıq tərbiyəsi ön plana çəkilən mətnlərdən istifadə edərkən hər bir sinif müəllimi elə etməlidir ki, şagird mətnin tərbiyəvi əhəmiyyətini düzgün dərk etsin və nəticə çıxartsın.

Vətən, xalq, azadlıq uğrunda çapışmış qəhrəmanların timsalında,

Vətəni sevməyi, düşmənə nifrət etməyi öyrətsinlər. Dərsliklərdə verilən ədəbi-bədii mətnlər, atalar sözlər, bayatılar, hallıq tərbiyəsi baxımından Vətənə, yurda, ocağa məhəbbət, dostluq və yoldaşlıq, birlik, kollektivçilik, böyüyə, ağsaqqala, ağbirçəyə hörmət, əməksevərlik, nəzakət, ləyaqət, xalq qəhrəmanlarına, milli qəhrəmanlara, tarixi şəxsiyyətlərə hörmət, düzgörəyə hörmət kimi keyfiyyətlər tərbiyə edir. Bu isə şagirdlərdə halallıq duyğusunun inkişafına müsbət tə'sir göstərir.

Bu gün hər bir müəllim öz yetirmələrinin halal böyümələri üçün, Vətən, xalq, el-oba qarşısında borclarını halallıqla yerinə yetirmələri üçün narahat olmalı və bunun üçün böyük məs'uliyyət hiss etməlidir. Bu isə yetişməkdə olan nəslin düzgün tərbiyə olması üçün əsas şərtdir. Tərbiyə üçün məs'uliyyət hiss edən müəllimlər öz yetirmələrinə nə kimi keyfiyyətlər tərbiyə etmək lazım olduğunu, aydın dərk edib, həmin keyfiyyətlərin ardıcıl tərbiyəsinə çalışırlar. Bu məs'uliyyət hissi onları yetirmələrinin tə'lim-tərbiyəsini nəzarətsiz buraxmağa qoymur. Şəxsi nümunənin tərbiyədə həlledici rol oynadığını bilərək, onlar yetirmələrinə aşılamaq istədikləri sifətlərin nümunəsini ifadə etməyə səy göstərir və özləri də halal omlağa çalışırlar.

Xasiyyəti pozulmuş uşağı yenidən tərbiyə etmək çox çətindir. Müəllimlər bunu dərk etməli və öz yetirmələrini hələ kiçik yaşlarından düzgün tərbiyə etməyə çalışmalıdırlar. Bu isə məktəb dövrünün sonrakı mərhələlərində tərbiyə prosesini çox səmərəli edər.

Bu nəcib işin həyata keçirilməsində hər bir pedaqoji kollektivin bu tələblərə vicdanla yanaşması çox vacibdir. Yetirmələrinin vətənin halal övladları olmaları üçün hər bir müəllim məktəbin uşaqda nə kimi sifətlər tərbiyə etdiyini, ona nə kimi tələblər verdiyini yaxşı bilməli, öz tədbirləri ilə məktəb tərbiyəsinin tə'sir gücünü qüvvətləndirməyə çalışmalıdır.

## Suala cavab

***Sual:*** Yoxlama imlalar və yoxlama yazı işlərinə jurnalda necə qiymət verilir?

***Cavab:*** Yoxlama imlalara və hər rübün axırında aparılan yoxlama yazı işlərinə dəftərdə iki qiymət verilir. Birinci qiymət mətnin orfoqrafik cəhətdən savadlı yazılmasına, kalliqrafiya, punktuasiya tələblərinə necə cavab verməsinə görə, ikinci qiymət mətnlə bağlı qrammatik qaydaların necə dərk olunmasına, tapşırığın necə yerinə yetirilməsinə görə verilir.

Adətən, yazı işlərinə verilən birinci qiymət jurnala, ikinci qiymət isə müəllimin qeydlər dəftərinə yazılır. Dəqiqlik xatirinə həmin iki qiymətdən ortaq qiymət çıxarıb jurnala yazmaq məsləhətdir.

# UŞAQ ƏMƏYİNİN ÖZÜNƏMƏXSUSLUĞU VƏ TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

*Zərifə Zeynalova,*
*ADPU-nun müəllimi, pedaqoji elmlər namizədi*

Mə'lumdur ki, əmək yarandığı gündən özünəməxsus xüsusiyyətlərə malik olmaqla, insanın tərbiyəsi üçün də mühüm şərt olmuşdur. Əməyin bir fəaliyyət kimi dəyişilməsinə, təkmilləşməsinə tə'sir edən insana həm də əmək öz tərbiyəvi tə'sirini göstərmişdir. Bu cür qarşılıqlı əmək prosesində təkcə məhsul əldə edilmir, həm də insan şəxsiyyəti formalaşdırılır, onlarda mühüm əxlaqi keyfiyyətlər tərbiyə edilir.

Əmək fəaliyyətinin məhz belə tə'sir qüvvəsini nəzərə alaraq məktəbəqədər yaşdan uşaqları əməyə hazırlamaq, onlada öz əməklərinə məs'uliyyətlə yanaşmaq vərdişi tərbiyə etmək vacibdir. Uşaq əməyi özünəməxsus xüsusiyyətləri ilə fərqlənən, yalnız bu yaşda uşaqlara xas olan özünüməxsus əmək fəaliyyətidir. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi uşaqlarda erkən yaşdan zəhmət çəkmək adətinin və bacarığını, əməyə məhəbbət və zəhmətkeş adamlara hörmətin tərbiyə edilməsini nəzərdə tutur. Bu yaş dövründə düzgün qoyulmuş əmək tərbiyəsi prosesində uşaq fəaliyyət göstərərək, onu əhatə edən şeylər haqqında ilkin təsəvvürlər əldə edir, onda əməyə məhəbbət, ona şən və yaradıcı münasibət formalaşır.

Müşahidələr göstərir ki, məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyəti, əsasən, oyun prosesində, oyun xatirinə icra olunursa da, hər halda öz xüsusiyyətləri ilə fərqlənir. Bu xüsusiyyətlər özünü uşaqların əməyinin epizodik, qısamüddətli, az davamlılığı, kifayət qədər düşünülmüş və planlı olmamasında göstərir. Buna baxmayaraq, bütün bu xüsusiyyətlərin yaşlılar tərəfindən nəzərə alınması, onların tələblərindən tərbiyəvi tə'sirindən asılı olaraq, uşaqların əməyinin şəxsi və ictimai xarakterini dərk etməsi nəticəsində onların əməyə münasibəti dəyişir. Artıq uşaqlar bu və ya digər işin nəyin xatirinə görülməsini aydınlaşdırmağa çalışırlar. Buna aydın cavab tapdıqda isə əmək tapşırığına oyun kimi yanaşmır, əməyin zərurətini dərk edib, ona həvəslə qoşulurlar. Məhz belə əmək fəaliyyəti prosesində həm də uşaqlada müəşəkkillik, müstəqillik, tə'kidlilik kimi keyfiyyətlər, məs'uliyyət hissi inkişaf etməyə başlayır. Əmək öz tərbiyəvi tə'sir qüvvəsi ilə uşaq şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır.

Kiçik, orta və byöük məktəbəqədər yaş dövründə uşaqların əməyi öz xüsusiyyətləri ilə fərqlənir. Belə ki, hər yaş dövründə uşaq əməyi müəyyən xüsusiyyətlərə malik olur. Əgər kiçik məktəbəqədər yaş dövründə əmək və oyun ayrılmamış fəaliyyətdirsə və böyüklərin göstərişi ilə həyata keçirilirsə, artıq böyük məktəbəqədər yaş dövrüdə əmək oyundan ayrılaraq, uşaqların özləri tərəfindən planlaşdırılmış, məqsədə yönəldilmiş xarakter kəsb etməyə başlayır düzgün əmək tərbiyəsi nəticəsində məktəbəqədər yaşda əməyin xarici cazibəliliyi uşaqlar üçün böyük

əhəmiyyətini saxlasa da, artıq hadisələrin xarici tərəfinə maraqdan tədricən əmək fəaliyyətində doğan razılıqla, yerinə yetirilən işin keyfiyyəti uğrunda məsuliyyət hissi ilə bağlı olan marağa keçid baş verir.

Kiçik məktəbəqədər yaşlı usaqlar, adətən, bu yaş dövrü üçün səciyyəvi heç bir məqsəd daşımayan, dəfələrlə təkrar olunan hərəkətlər edirlər. Çünki bu hərəkət öz-özlüyündə ona ləzzət verir. Uşaqların etdikləri bü cür hərəkətlər təqlidetmə əsasında əmələ gəlir. Uşaq yaşlıların mürəkkəb hərəkətlərini təqlid prosesində dərk edir.

Uşaqlarda getdikcə əşyalarla hərəkətlərdə əşyanın vəzifəsinin dərk edilməsi və onun tətbiqetmə üsulunun mənimsənilməsi baş verir. Bundan sonra uşaqlar öz məqsədsiz hərəkətlərindən əşyalarla oyuna keçir və getdikcə onların bu hərəkətləri sadə məqsədə gəlib çıxır.

Uşaqların müstəqil hərəkət etmələrinin ilk cəhdlərində onlarda müstəqillik, məqsədəuyğunluq, təşəbbüs, fiziki qüvvə və əqli gərginlik kimi cəhətləri inkişaf edir. Əməyə məqsədyönlü fəaliyyət kimi baxaraq, uşaqlarda müstəqil məqsəd qoyma və onu yerinə yetirmə qabiliyyətini inkişaf etdirmək vacibdir. Fəaliyyətin bu məqsədyönlü xüsusiyyəti kiçik yaşlı uşaqlarda özünəxidmətdə uşaqların corablarını, ayaqqabılarını müstəqil geymələrində özünü büruzə verir. Orta və böyük məktəbəqədər yaşlı uşaqlar isə özləri adət edilmiş şəraitdə gündəlik işlərində məqsəd qoymağı, məsələn, kitab rəfindən kitabları səliqəyə salmağı, kukların paltarını yumağı və s. öyrənirlər.

Əməklə məşğul olmaq arzusu və bacarığının inkişafında , məqsədyönlü fəaliyyətin formalaşmasında motivlər böyük əhəmiyyət kəsb edir. Əmək fəaliyyəti motivlərinin bir neçə növü vardır. Belə motivlərdən biri uşaqların fəaliyyətini yaşlıların tələbi ilə (nəyi isə gətirmək, vermək, rəfdə oyuncaqları səliqəyə salmaq və s.) şərtləşən motivdir. Bu motiv çox vaxt tapşırıqla əlaqədar olur. Burada fəaliyyət qısamüddətli xarakter daşıyır, lakin özünün fəallıq göstərməsi və yaşlılar tərəfindən əməyinin müsbət qiymətləndirilməsi zamanı ona məmnunluq hissi keçirməyə imkan verir.

Məktəbəqədər böyük yaş dövrü üçün ictimai əhəmiyyətli motivlər müəyyənləşdirilir. Bu motiv, əsasən, 4-5 yaşlı uşaqların ətrafdakılar üçün nə isə hazırlamaq yönümündə əməklərində özünü göstərir. Bu motiv uşaqların özlərindən balacalar üçün oyuncaq, ana,bacı üçün bayram hədiyyəsi hazırlığında daha qabarıq surətdə təzahür edir.

6-7 yaşlı uşaqların müstəqil məqsəd qoya bilmək qabiliyyəti onların maddi nəticə ala biləcəkləri əmək növlərində, məsələn, güllükdə, bostanda işlədikdə, oyuncaq düzəltdikdə daha müvəffəqiyyətlə inkişaf edir. İctimai əhəmiyyətli motivlər olduqda bu yaşda uşaqların məqsədyönlü fəaliyyəti daha çox sabitləşir. Əməkdə ictimai motivə tabe olan sərbəst davranışın formalaşdırılması ( 8 Mart günü anaya hədiyyə düzəltmək və s.) uşağı fəallaşdırır, o tapşırığı nəinki düzgün yerinə yetirməyə, həm də səliqə ilə yerinə yetirməyə çalışır. Uşaqların əməklərinin nəticəsi həm də onlara sevinc gətirir. Bu müsbət emosiyalar, sevinc hissələri əməksevərliyin formalaşmasının ilkin mərələsində onların fəaliyyətə şəxsi münasibətini də müəyyən edir.

Uşağın öz nailiyyətlərini dərk etməsi, bu nailiyyətlərin böyüklər tərəfindən qiymətləndirilməsi də zəruridir. Bu zaman uşaqlar daha da zirəkləşir, əmək tapşırıqlarını sür'ətlə və keyfiyyətlə görməyə çalışır, həm də bunun işin nəticəsinə müsbət tə'siri olduğunu görürlər.

Əmək prosesinə, əmək münasibətlərinin mürəkkəb aləminə uşaqların ilk bələdliyi belə başlanır. Onlar hər şeyi əyani surətdə görməyə başlayırlar. Əməyin insanı ucaltması, yaşlıların əməyi. Əmək münasibətləri haqqında onların təsəvvürləri qrupdan-qrupa keçdikcə və müxtəlif əmək fəaliyyətlərində iştirak etdikcə artır, onlarda mə'nəvi anlayışlar formalaşır.

Uşaqların müxtəlif əmək fəaliyyətlərində iştirakı onların əqli, fiziki, əxlaqi, estetik cəhətdən inkişafını möhkəmləndirir və zənginləşdirir.

Əmək prosesində uşaqlar anlayırlar ki, əməkdə iştirak etmədən namuslu, alnıaçıq yaşamaq mümkün deyildir. Uşaqların əməkdə iştirakı zamanı onlarda əməyə psixoloji və mə'nəvi hazırlığın mühüm ünsürləri təşəkkül tapır. Uşaqların əməyə mə'nəvi hazırlığının əsasları onların əmək fəaliyyətində formalaşır. Müxtəlif əmək tapşırıqlarının yerinə yetirilməsi zamanı uşaqlardan hərəkətlərin ahəngdarlığı, düzgün işgüzar münasibətlər yaratmaq bacarığı, mütəşəkkillik, hamı üçün işləmək arzusu tələb olunur. Bu cür işlərin daim yerinə yetirilməsi isə xüsusi emossional əhval-ruhiyyə, əməksevərlik, inadkarlıq və mə'nəvi keyfiyyətlər formalaşdırır.

Uşaqların təbiətdə əməyi fiziki inkişaf üçün əlverişl şərait yaradır. Hərəkətləri kamilləşdirir, müxtəlif orqanların fəaliyyətini fəallaşdırır, əsəb sistemini möhkəmləndirir. Bu əməkdə heç bir başqa əməkdə olmadığı qədər əqli və iradi sə'ylər uyğunlaşır. Təbiətdə əmək uşaqların əqli və sensor inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Bu və ya digər əmək hərəkətlərini yerinə yetirərkən uşaqlar torpaq və bitkilərin müxtəlif xassələri ilə qarşılaşır və bu xassələri öyrənirlər. Torpaq və bitki xassələrini araşdırmaq bacarığı fiziki sə'ylərin sərf edilməsini düzgün tənzimləməyə, müvafiq əmək alətləri seçməyə, öz hərəkətlərini uyğunlaşdırmaq üçün müəyyən bacarıq əldə etməyə imkan verir. Alaqetmə zamanı mədəni bitkilərin xarici əlamətəlrini fərqləndirmək bacarığı, alaqları əl ilə düzgün tutma vərdişi yaradır.

Təbiətdə əmək uşaqların görüş dairəsini genişləndirir, torpaq, əmək materialı, əmək prosesi, əmək alətləri haqqında onların dərk edə biləcəkləri biliklərin əldə olunması üçün imkan yaradır. Şəxsi təcrübə əsasında onlar öyrənirlər ki, su bitkiləri müəyyən həyati fəallıq halında saxlayır. Bitki və heyvanların artma və inkişafına insanlar tə'sir göstərə bilirlər.

Təbiətdə əmək uşaqlarda müşahidəçilik, hər şeylə maraqlanmaq qabiliyyətini inkişaf etdirir, onlarda təbiətə məhəbbət hissi formalaşdırır.

Əmək uşaqların estetik tərbiyəsində də mühüm rol oynayır. İnsanların estetik tələbatlarının ödənilməsinə yönəldilmiş təbiətdəki əməyin, (məsələn, çiçəklərin yetişdirilməsi) məzmunu, mədəniyyət və estetika tələblərinə müvafiq əmək prosesinin təşkili praktik tələbatlar və şən estetik emosiyaların ödənilməsi üçün əmək nəticələrindən istifadə edilməsi vasitəsilə uşaqların estetik tərbiyəsi həyata keçirilir.

Beləliklə, məzmunca müxtəlif əmək tapşırıqlarının yerinə yetirilməsi

zamanı onların tərbiyəvi imkanları nəzərə alınmalı, onlardan bu məqsədlə geniş istifadə edilməlidir. Bu məqsədin yerinə yetirilməsi üçün isə uşaqların əqli, fiziki, əxlaqi, estetik və əmək tərbiyəsini kompleks həyata keçirmək, onların daxilən əmək həyatına hazırlanmasını tə'min etmək zəruridir.

## UŞAQLARDA HƏSSASLIĞIN PSİXOLOJİ ƏSASLARI

*Limunət Bağırova*
*elmi işçi*

Şəxsiyyətin formalaşması mürəkkəb fizio-psixoloji proseslər, sosial amillərə əsaslanan prosesdir. İnsan yer üzərində yaşayan digər canlılardan özünün şüuruna, idrak qabiliyyətlərinə görə fərqlənir. İdrak obyektiv aləmin insanın hiss üzvlərinə tə'sirindən yaranan prosesdir. Hiss üzvləri həssaslığın fizio-psixoloci funksiyasını yerinə yetirməklə ətraf aləmlə insanın şüuru (idrakı) arasında vasitə rolunu oynayır. Bu vasitə insanın psixoloci xüsusiyyətlərinin formalaşmasında digər psixi proseslər kimi mühüm rol oynayır.

İnsan rəftarının nizamlayıcısı olan həssaslıq uşağın ətraf aləmdə cərəyan edən hadisələri təhlil edərək bu hadisələrə öz münasibətini bildirməsini, nə vaxt danışmağa başlamağın, nə vaxt susmağın lazım olduğunu, nəyi etməyin mümkünlüyünü, nəyin yolverilməzliyini müəyyənləşdirməyə imkan verir.

Kəskin vəziyyətdən necə çıxmaq olar ki, başqalarının xətrinə dəyməyəsən, öz mövqeyini necə müdafiə etməlisən ki, eyni zamanda yoldaşını da alçaltmayasan.

"Düzgün qurulmuş tərbiyə şəraitində məktəbəqədər yaşlı uşaqlarda sadə həssaslıq elementlərini yaratmaq mümkündür. Uşağa öyrətmək olar ki, öz arzusunu tələsik yerinə yetirmək istəyini boğsun, vəziyyəti götür-qoy edərək hərəkət etsin, yaxın adamların əhval-ruhiyyəsi və imkanları ilə hesablaşsın, öz marağını açıq şəkildə ifadə etməsin". (L.F.Ostrovskaya. "Besedı s roditelyami o nravstvennom vospitanii doşkolnika". "Prosveşeniye", M., !987, səh. 13).

Uşaq bilməlidir ki, tanımadığı adam haqqında şəxsi fikrini söyləmək olmaz. O, insanlar arasında özünü mədəni aparmağı bacarmalı, onların insanlıq ləyaqətini alçaltmamalıdır. Təcrübə göstərir ki, uşaq heç də özünü həmişə nəzakətli apara bilmir. Əxlaqi anlayışların zəif olması, tərbiyə işinin düzgün qurulmaması, yaxud ona tanış olan qaydaları gözləmək istəyinin olmamasından başqalarının mə'nəviyyatına toxuna biləcək hərəkətlərə yol verir. Bunu bə'zən təhqirin ünvanlandığı şəxsin yanında, bə'zən də onun iştirakı olmadan həyata keçirir. Beşyaşlı Rəşid sifətində, danışığında ciddi fiziki qüsur olan yoldaşını təqlid edir. Dərk etmir ki, özünü belə aparmaq olmaz, bu yoldaşın xətrinə dəyir, fiziki çatışmalığa görə heç kəsə gülməzlər, onsuz da o, öz şikəstliyinə görə əzab çəkir. O, həssaslığa və qayğıya möhtacdır.

Həssaslığın davranışda təzahürü kimi nəzakətlilik, ağayanalıq hələ erkən yaşlardan böyüklərin şəxsi nümunəsi vasitəsilə tərbiyə olunur. Bu tərbiyə həssaslığın psixoloji əsasında duran duyğuların, hadisələrin düzgün formalaşdırılması ilə başlanmalıdır. Həssaslıq tərbiyəsi əqli tərbiyə işindən daha vacib məsələdir. Ona görə ki, yeni bilik və bacarıqlar hansı məqsədin yerinə yetirilməsi üçün öyrənilirsə, bu imkanlardan gələcəkdə istifadə olunması həlledici formada uşağın insanlara, ətraf aləm hadisələrinə münasibətindən, həssaslıq dərəcəsindən çox asılı olur. Bu baxımdan həssaslığın tərbiyə edilməsində elmi şəkildə əsaslandırılmış metodların hazırlanması, uşağa hansısa biliyin və bacarığın öyrədilməsi metodlarının hazırlanmasından daha çətindir. Müəyyən şəraitdə uşaq şəxsiyyətinin daxili ləyaqətinə çevrilən yüksək insani hisslərində formalaşması, sosial dəyərləri, sosial tələbləri, norma və ideyaları mənimsəməsi, onun davranışının vadaredici motivlərini mənimsəməsi prosesində gedir.

Uşaqlarda həssaslıq hələ erkən yaşlardan müşahidə olunur. 3 yaşa qədər müşahidə edilən həssaslıq, əsasən, bioloji tələbatlarla bağlı olub, duyğu üzvləri vasitəsilə əks etdirilir. Uşağın duyğu analizatorlarının hər hansı tə'sirə qarşı reaksiyası həssaslıqla bağlıdır.

Görkəmli psixoloqlar Ə.Bayramov və Ə.Əlizadə insan duyğuları ilə həssaslıq arasındakı əlaqəni izah edərək göstərmişlər ki, zəif qıcıqlayıcını duyma qabiliyyəti mütləq həssaslıq adlanır. Mütləq həssaslıqla duyğunun aşağı mütləq həddi tərs mütənasibdir. Yə'ni duyğunun aşağı mütləq həddi az olduqca, ona həssaslıq yüksək olur və əksinə.

1-3 yaşlı uşaqlarda həssaslıq hissi proseslərə əsaslanır. Sensor proseslərin fəaliyyətinin düzgün qurulması sonrakı yaş mərhələlərində həssaslıq tərbiyəsinin səmərəli təşkilinə imkan verir. Sensor inkişaf insanın həyatı boyu davam edir. Sensor kamillik yalnız sağlam fiziologiyaya, normal mühitdə böyümüş insana, cəmiyyətin əxlaq normalarına özünün tabe etməyi bacaran şəxslərə xas ola bilər. "Həssaslıq insanın potensial xassəsi olan həssaslığın gerçəkləşməsi insanın yaşadığı həyat şəraiti, fəaliyyət növü və s. amillərdən asılı olur.

Uşağın hissi tərbiyəsi dünyanın anlamanın əsaslarına xidmət edir. Bu anlamanın məzmunu uşağın hissi təcrübəsi ilə əlaqədar tədricən zənginləşir, daha mürəkkəb idrak prosesləri ilə tənzimlənir. Uşağın mə'nəvi aləminin, əxlaqının formalaşması hissi tərbiyənin quruluşundan çox asılıdır.

Uşaq nə qədər kiçikdirsə, onun həyatında hissi təcrübənin rolu böyükdür. Professor N.M.Şelovanov erkən yaş dövrünü hissi tərbiyənin "qızıl dövrü" adlandırmışdır. Uşaqda analizatorların həssaslığı əşyavi fəaliyyət prosesində artır. Məktəbəqədər yaşlı uşaqlarda həssaslıq 2 formada özünü göstərir. Sosial tələbatların ödənilməsi prosesində yaranan maddi həssaslıq, yaşlılarla ünsiyyət prosesində yaranan emosional həssaslıq.

Əşyavi fəaliyyət prosesində həssaslıq müxtəlif prinsiplərlə formalaşır.

1. Erkən yaş dövrünə xas olan hissi tərbiyə işinin zənginləşməsi və təkmilləşməsi. Əşyalar aləminə bələdləşmə, rəng, forma, ölçü, anlayışlarının əxz edilməsi ilə yanaşı nitqi anlama və təfəkkür hisslərinin inkişafı.

2. Həssaslığın inkişaf prosesinin təkmilləşdirən və konkretləşdirən sensor hərəkətlərin müxtəlif məzmunlu fəaliyyət növlərinin tətbiq edilməsi. Bu fəaliyyət növlərində uşaq əşyalarının xassə və keyfiyyətlərini fərqləndirərək induksiya və deduksiya əməliyyatlarını həyata keçirir.

3. Uşaqlara ətraf aləm, ona bələdlik haqqında ümumiləşmiş biliklərin verilməsi. Əşyaların xassə və keyfiyyətləri müxtəlif olduğundan onların hər biri ilə praktik tanışlıq qeyri-mümkündür. Bu baxımdan nitqi anlamanın kamilləşdiyi 2-3 və yuxarı yaş dövrlərində uşaqlarda əyani-obrazlı təfəkkürdən məntiqi təfəkkürə keçid dövrünün başlanması şifahi mə'lumatları mənimsəmək imkanı yaradır. Bu mə'lumatlar məzmununa görə uşaqların şəxsi həyat təcrübəsi ilə bilavasitə əlaqəli olduqda uşaqların həssaslığı çərçivəsində dərk edilir.

4. Əşyaların xassə və keyfiyyətləri haqqında müntəzəm hər hansı əşyanın öyrənilməsinin əsasını təşkil edən təsəvvürlər yaratmaq. Uşaq yeni aldığı mə'lumatı yaddaşında olanlarla, qavradıqları ilə müqayisə etməlidir. Uşaq hələ erkən dövrdən başlayaraq öz biliyindən qavrama və dərketmə kimi istifadə edir.

Sensor tərbiyənin mahiyyəti uşaqlarda sensor proseslərin, duyğuların, qavrayışın, təsəvvürün məqsədəmüvafiq istiqamətləndirilməsindən asılıdır. Uşağın bütün həyat fəaliyyəti dövründə sensor təcrübənin dərinləşməsi, həyati hisslərin zənginləşməsi, emosional tonusun yüksəlməsi, müsbət emosiyaların fəallaşması ətraf aləm hadisələrinin qavranılması ilə bağlı olan maraqların güclənməsi, tələbatların formalaşması prosesi gedir.

Ətraf aləmə marağın efektliliyi uşağın marağa emosional münasibətindən asılıdır. Hər bir uşaq müəyyən vəziyyətə özünəməxsus emosional münasibəti onun həssaslığının səviyyəsi ilə ölçülür. Həssaslığın artması uşağın intellektual inkişafına güclü tə'sir göstərir.

Uşaqda həssaslıq tərbiyəsi onun əqli tərbiyəsindən daha vacib məsələdir. Yeni bilik və bacarıqlar hansısa məqsədin yerinə yetirilməsi məqsədilə öyrənilir. Bu imkanlardan gələcəkdə də istifadə olunması həlledici formada uşağın insanlara, ətrafdakı hadisələrə münasibətindən çox asılıdır.

Yüksək insani hisslərin formalaşması, sosial dəyərlərin, norma və ideyaların mənimsənilməsi, müəyyən şəraitdə uşaq şəxsiyyətinin daxili ləyaqətinə, onun davranışının sövqedici motivlərinə çevrilir. Belə mənimsəmə nəticəsində uşaq qiymətləndirmənin özünəməxsus etalmentlər sistemini əldə edir, müşahidə etdiyi hadisələrə şərait yaradaraq onların emosional qiymətini verir, cəlbedicidir, yaxud xoşagəlməz, xeyirxah və ya bədniyyətdir, gözəldir və ya çirkindir.

Hər bir uşaq fərdi psixoloci keyfiyyətlərə malikdir. Uşağın fərdi xüsusiyyətlərinin təzahüründə xüsusi yeri, onun ümumi fəallığının fərdi dinamik xarakteri, həssaslığın iradi keyfiyyətləri, davranış tərzi tutur. Bu keyfiyyətlər müxtəlif hallarda, müxtəlif formalarla meydana çıxır. Uşağın fəallığının belə dinamik xarakteri temperament olub, uşaq psixikasının məzmununu əks etdirmir.

Temperamentə öz enerjisini, dinamik imkanlarının daha optimal sərf

etməyə imkan verən psixoloji sifətlərin nəticəsi kimi baxılır. Temperament xassəsi hərtərəflidir və fəaliyyətin bütün sahələrinə imkan verir. Tepmerament xassəsi yüksək formada əsəb sistemi və digər bioloji sistemlə əlaqəli olub nəsildən-nəslə ötürülür.

Temperament uşağın psixi xüsusiyyətlərinin formalaşmasının yalnız bir şərtidir. Mə'nəvi təkmilləşmə tərbiyə ilə şərtlənir, lakin tərbiyənin qoyuluşunda temperament xüsusiyyətləri nəzərə alındıqda daha yüksək nəticələr verir.

Doğulan andan davranış reaksiyasına görə uşaqlar bir-birindən fərqlənir. Uşaqda ilk günlərdə təzahür edən, reaksiyaların intensivliyinə görə seçilən fərdi fərqlər sonrakı mərhələlərdə də qorunub saxlanır. Deməli, həssaslığın əsasını irsiyyət təşkil edir, düzgün qurulmuş tərbiyə onu lazım olan istiqamətə yönəldir. Hər bir valideyn öz təcrübəsindən bilir ki, körpə səsə qarşı barışmazdırsa, kənar tə'sirləri istəmirsə, sakitlik,, xüsusi şərait tələb edir, biz onun üçün bu şəraiti yaratmağa məcbur oluruq. Uşağı başqa vəziyyətə alışdırmaq olduqca çətindir. Oğlum beşikdə yatmağı xoşlamırdı. Böyüklərin tələbi ilə mən onun ata-baba adətimizə alışdırma üçün çox zəhmət çəkdim. 3-4 saat beşiyi yırğalayır, layla çalır, bütün tə'sir vasitələrindən istifadə edirdim. Nəhayət, onun tələbini yerinə yetirməyə məcbur oldum. Bələyi yanıma qoyan kimi yuxuya gedirdi. 4-5 ay keçəndən sonqa qət'i qərara gəldim ki, nəfəsim onun üçün ən yaxşı tə'sir vasitəsidir. 4 yaşında onu çox çətinliklə öz çarpayısında yatızdıra bildim, lakin 7 yaşına qədər o, hər gecə saat 2-3 radələrində oyanır, yanıma gəlib, üzümə əl gəzdirir, sonra yerinə qayıdıb yatırdı. Onun anaya belə həssaslığı sonralar öz formasını dəyişsə də, məzmunu dəyişməmişdir.

Həyatı boyu uşağın temperament xüsusiyyətlərinin inkar edilməsi faktları təkzibedilməzdir. Özünü 3 yaşından tam dərk etməyə başlayan insan həyatı boyu özünün tərbiyə etməyə, xarakterindəki xoşagəlməz cəhətlərdən yaxa qurtarmağa çalışır, lakin iradi keyfiyyətlərə malik olmadan buna nail olmaq mümkün deyil. Həyatda elə vəziyyət də yarana bilər ki, bütün sə'ylərə baxmayaraq, insan hər şeyi unudaraq öz xarakterini "təmiz" formada nümayiş etdirsin. Buna insanın düşdüyü çətin vəziyyət, keçirdiyi stress və digər emosional halətlər səbəb ola bilər. Deməli, temperament xüsusiyyətindən yaxa qurtarmaq heç də həmişə mümkün olmur. Müsbət xüsusiyyətlərin möhkəmləndirilməsi, mənfilərin təkzib edilməsi yaşlıların uşağın davranışına tələbkarlığından da bilavasitə asılıdır.

Uşağın tərbiyəsi işində ən çətin mərhələ qarşılıqlı anlaşmaya nail olmaqdır. Hər bir uşaq yalnız ona xoş gələn, onun maraqları ilə üst-üstə düşən, dərk edə, duya, hiss edə bildiyi qaydaları qəbul etməyə çalışır. Bu qaydaların kimin tərəfindən hansı şəraitdə öyrədilməsi mühüm əhəmiyyət kəsb edir.

Uşaqların bir-birinə qarşı həssaslığı onların qarşılıqlı münasibətlərində aydın müşahidə olunur. Yaşıdlarla qarşılıqlı münasibətlərdəki konflikt onların normal ünsiyyətinə, şəxsiyyətin mükəmməl inkişafına mane olur.

Həssaslığın davranışda təzahürü kimi nəzakətlilik, ağayanalıq hələ erkən yaşlardan böyüklərin şəxsi nümunəsi vasitəsilə tərbiyə olunur. Bu tərbiyə həssaslığın psixoloji əsasında duran duyğuların, hadisələrin düzgün formalaşdırılması ilə başlanmalıdır. Həssaslıq tərbiyəsi əqli tərbiyə işindən daha vacib məsələdir. Ona görə ki, yeni bilik və bacarıqlar hansı məqsədin yerinə yetirilməsi üçün öyrənilirsə, bu imkanlardan gələcəkdə istifadə olunması həlledici formada uşağın insanlara, ətraf aləm hadisələrinə münasibətindən, həssaslıq dərəcəsindən çox asılı olur. Bu baxımdan həssaslığın tərbiyə edilməsində elmi şəkildə əsaslandırılmış metodların hazırlanması, uşağa hansısa biliyin və bacarığın öyrədilməsi metodlarının hazırlanmasından daha çətindir. Müəyyən şəraitdə uşaq şəxsiyyətinin daxili ləyaqətinə çevrilən yüksək insani hisslərində formalaşması, sosial dəyərləri, sosial tələbləri, norma və ideyaları mənimsəməsi, onun davranışının vadaredici motivlərini mənimsəməsi prosesində gedir.

Uşaqlarda həssaslıq hələ erkən yaşlardan müşahidə olunur. 3 yaşa qədər müşahidə edilən həssaslıq, əsasən, bioloji tələbatlarla bağlı olub, duyğu üzvləri vasitəsilə əks etdirilir. Uşağın duyğu analizatorlarının hər hansı tə'sirə qarşı reaksiyası həssaslıqla bağlıdır.

Görkəmli psixoloqlar Ə.Bayramov və Ə.Əlizadə insan duyğuları ilə həssaslıq arasındakı əlaqəni izah edərək göstərmişlər ki, zəif qıcıqlayıcını duyma qabiliyyəti mütləq həssaslıq adlanır. Mütləq həssaslıqla duyğunun aşağı mütləq həddi tərs mütənasibdir. Yə'ni duyğunun aşağı mütləq həddi az olduqca, ona həssaslıq yüksək olur və əksinə.

1-3 yaşlı uşaqlarda həssaslıq hissi proseslərə əsaslanır. Sensor proseslərin fəaliyyətinin düzgün qurulması sonrakı yaş mərhələlərində həssaslıq tərbiyəsinin səmərəli təşkilinə imkan verir. Sensor inkişaf insanın həyatı boyu davam edir. Sensor kamillik yalnız sağlam fiziologiyaya, normal mühitdə böyümüş insana, cəmiyyətin əxlaq normalarına özünün tabe etməyi bacaran şəxslərə xas ola bilər. "Həssaslıq insanın potensial xassəsi olan həssaslığın gerçəkləşməsi insanın yaşadığı həyat şəraiti, fəaliyyət növü və s. amillərdən asılı olur.

Uşağın hissi tərbiyəsi dünyanın anlamanın əsaslarına xidmət edir. Bu anlamanın məzmunu uşağın hissi təcrübəsi ilə əlaqədar tədricən zənginləşir, daha mürəkkəb idrak prosesləri ilə tənzimlənir. Uşağın mə'nəvi aləminin, əxlaqının formalaşması hissi tərbiyənin quruluşundan çox asılıdır.

Uşaq nə qədər kiçikdirsə, onun həyatında hissi təcrübənin rolu böyükdür. Professor N.M.Şelovanov erkən yaş dövrünü hissi tərbiyənin "qızıl dövrü" adlandırmışdır. Uşaqda analizatorların həssaslığı əşyavi fəaliyyət prosesində artır. Məktəbəqədər yaşlı uşaqlarda həssaslıq 2 formada özünü göstərir. Sosial tələbatların ödənilməsi prosesində yaranan maddi həssaslıq, yaşlılarla ünsiyyət prosesində yaranan emosional həssaslıq.

Əşyavi fəaliyyət prosesində həssaslıq müxtəlif prinsiplərlə formalaşır.

1. Erkən yaş dövrünə xas olan hissi tərbiyə işinin zənginləşməsi və təkmilləşməsi. Əşyalar aləminə bələdləşmə, rəng, forma, ölçü, anlayışlarının əxz edilməsi ilə yanaşı nitqi anlama və təfəkkür hisslərinin inkişafı.

Ünsiyyətin pozulması ilə əlaqədar inkaredici emosional əhval-ruhiyyə bədbinliyə, iradəsizliyə aparıb çıxarır.

Uşaq həmişə yaşıdlar mühitinə can atır. Bir qrup uşaq özlərini bu mühitdə fəal, həssas, inamlı, yoldaşına diqqətli aparır. Belə uşaqlar üçün yaşıdları arasında olmaq rahatdır. Yaşıdları ilə dil tapa bilməmək uşaqda gərginlik hisslərinin yaranmasına səbəb olur. Onda təkliyə meyillilik yaranmağa başlayır. Kobudluq, laqeydlik müşahidə olunur. Belə uşaqlar başqalarının çətinliklərinə qarşı biganə olurlar. Uşaqda belə xoşagəlməz cəhətlərin qarşısını almaq üçün onda kiçik yaşlarından ünsiyyət mədəniyyəti, yaşıdlarına diqqətli, həssas olmağı tərbiyə etmək vacibdir.

Məhz ünsiyyət, onun məzmunun uşaqların böyüklərə münasibətinin olduqca vacib anıdır. Bu ünsiyyət prosesində böyüklər uşağa düşünülmüş və düşünülməmiş formada tə'sir edirlər. Uşağın özündən tələb olunana, dona qədər əməl etdiyi ünsiyyətin məzmunu onun üçün maraqlıdır. Belə olduqda alınan nəticə uşaqda sevinc hissi özünə inam yaradır, onu yeni ünsiyyətə sövq edir.

Uşağın yaşlılarla şəxsi ünsiyyətinin məzmunu onlar arasında, əsasən, emosional münasibətə əsaslanır, lakin bu ünsiyyət forması bütün yaş dövrlərində eyni vasitə ilə yaradılır.

Həyatın ilk günlərindən başlamış özünün obrazını yaratmaq, özünün dərk etmək meyli yaşlılarla ünsiyyət prosesində formalaşır. "O özünü başqaları ilə müqayisə edir, öz hərəkətlərini qiymətləndirir, hisslərini nizamlayır. Bununla belə məktəbəqədər yaş dövründə özünə qarşı qeyri-tənqidi münasibət meyli üstünlük təşkil edir". (M.Lisina. Vliyanie obşeniya so vzroslımi na psixiçeskoe zdorovye rebyonka. 1982, № 8, səh. 43).

Əxlaq normaları baxımından eqoizmə yaxın olan bu meyl əslində uşaqda iradi keyfiyyətlərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Özünə qarşı optimist yanaşma bütünlüklə uşağın inkişafına təkan verir. Öz gücünə inandığına görə öz üzərinə bacarmadığı işi belə götürür. Müvəqqəti müvəffəqiyyətsizlik onu ruhdan salmır. Fəaliyyətdəki müvəfəqiyyətsizliinə qarşı uşaqlara təsəlli verilərsə, onlara yeni cəhdlər öyrədilərsə, bu, uşaqda müstəqilliyin, təşəbbüskarlığın formalaşmasına zəmin yaradır.

Göstərilənlərdən belə bir nəticəyə gələ bilirik ki, uşaqda həssaslığın, iradi keyfiyyətlərin, davranış mədəniyyətinin formalaşmasında yaşıdlar və yaşlılar mühitinin mühüm rolu vardır. Bu mühitdən aldığı mə'lumatlar uşaq üçün bir mənbədir. Bu mə'lumatların mənimsənilməsi, əxz edilməsi və gələcək təcrübədə istifadə olunması uşağın fərdi xüsusiyyətləri ilə bağlıdır. İnsan mə'nəviyyatında humanizmin əsasında duran həssaslıq, nəzakətlilik, nəciblik, ülvilik, mehribanlıq, səmimiyyət, təvəzökarlıq, xeyirxahlıq, zəriflik, hörmətcillik, qayğıkeşlik kimi gözəl keyfiyyətlərin formalaşmasına zəmin yaradır. Ona görə ki, insanın davranışında təzahür edən adlarını çəkdiyimiz əxlaqi keyfiyyətlərin mə'nəvi əsası həssaslıqla bağlıdır. Bütün bunlar uşaqlarda həssaslıq tərbiyəsinin vacibliyini bir daha təsdiq edir.

oyuncaqlara, şəkillərə, illüstrasiyalara baxmağa təhrik etmək. Uşaqları yanıltmac və qısa şe'rlər əzbərləməyə alışdırmaq, karandaşla, boya ilə şəkil çəkmək haqqında ilkin mə'lumat vermək, rənglərdən istifadə edərək ətrafdakı əşyalara, real hadisələrə təsvir verməyi öyrətmək lazımdır.

1 yaş -1 yaş 6 aya qədər uşaqların gəzintiyə getmələri çətin olduğundan onlar səhər yeməyindən sonra süjetli, hərəkətli, didaktik, tikinti materialları ilə oyunlara cəlb olunurlar. Tərbiyəçi uşaqların yorğunluğunu aradan qaldırmaq üçün, onların diqqətini oyunun bir növündən başqa növünə cəlb etməlidir.

Səhər gimnastikası 1 yaş 6 ay-2 yaşdan başlayaraq həftədə bir dəfə 4-5 hərəkətdən ibarət kompleks şəkildə planlaşdırılır. Fiziki təmrinlər planlaşdırılarkən keçirilən təmrinlər və onların miqdarı göstərilməlidir.

Məşğələdən kənar vaxtlarda mədəni gigiyena vərdişləri, müsbət davranış qaydalarının və humanist hisslərin tərbiyəsi nəzərdə tutulmalıdır. Vərdişlərin formalaşdırılması uzunmüddətli prosesdir, ona görə il ərzində eyni vəzifələr məzmunu genişləndirilərək və mürəkkəbləşdirilərək təkrar oluna bilər.

Məşğələdən kənar vaxtlarda müşahidə də daxildir. Müşahidə didaktik oyunla növbələşdirilir. Müşahidənin keçirilməsindən məqsəd, didaktik oyunun mövzusu göstərilməlidir. Gəzintidə oyunların keçirilməsində istifadə olunan oyuncaq və oyun materialları planda öz əksini tapmalıdır. Oyunlardan əlavə forma, ölçü və rəngə görə bələdləşməyə aid aparılan fərdi iş də planlaşdırılmalıdır. Oyun və başqa müstəqil fəaliyyət növünə didaktik, süjetli və tikinti materialları ilə oyunlar daxildir.

Didaktik oyunları planlaşdırarkən oyunun məqsədi, süjetli oyunlarda -vəzifələr qeyd edilir, oyun hərəkətləri üçün mövcud yollar göstərilir. Tikinti materialı ilə oyunların -3,4 vəzifəsi var, eləcə də oyuna rəhbərliyin yolları göstərilməklə planlaşdırılır.

## Həftəlik məşğələlərin təxmini siyahısı

| Məşğələlərin növləri | Məşğələlərin həftə ərzində miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|
| 1. Ətraf aləmə bələdləşmənin genişləndirilməsi və nitq inkişafı | 1 | 36 |
| 2. Bədii ədəbiyyatla tanışlıq və nitq inkişafı | 1 | 36 |
| 3. Sensor tərbiyə (didaktik materiallarla, oyuncaqlarla, tikinti materialları ilə hərəkət) | 2 | 72 |
| 4. Hərəkətlərin inkişafı | 2 | 72 |
| 5. Musiqi | 2 | 72 |

Cəmi: 8 məşğələ

Məşğələlərin həftə üçün təxmini bölgüsü

Bazar ertəsi
1. Sensor tərbiyə
2. Hərəkətlərin inkişafı

Çərşənbə
Ətraf aləmlə bələdləşmənin genişləndirilməsi və nitq inkişafı

Çərşənbə axşamı
1. Bədii ədəbiyyatla tanışlıq və nitq inkişafı
2. Musiqi

Cümə axşamı
1. Sensor tərbiyə
2. Hərəkətlərin inkişafı

Cümə
Musiqi

## Körpələr qrupuna nəzarətin növləri

Körpələr evi -uşaq bağçasının körpələr qrupunda nəzarətin aşağıdakı növləri tətbiq olunur: xəbərdarlıq-nəzarəti, tematik-nəzarət, müqayisəli-nəzarət, təkrar-nəzarət, məqsədli-nəzarət.

Təcrübə göstərir ki, körpələr qrupunda gündəlik istifadə olunan nəzarət xəbərdarlıq nəzarətidir.

Xəbərdarlıq nəzarəti iş planını, məşğələlərin icmalını, eləcə də qrupda qabaqcadan pedaqoqun hazırlığını aşkar etmək məqsədilə əvvəldən aparılan söhbətdir.

Məqsədli gündəlik müşahidə körpə qrup tərbiyəçisinin tibbi-pedaqoji işinə obyektiv qiymət verir.

Tematik nəzarət müxtəlif cür ola bilər: rejim prosesində zəif uşaqlara xüsusi nəzarət, uşaqların gəzintisinin təşkilinə nəzarət. Tematik yoxlama ildə 1-2 dəfə aparılır.

Müqayisəli nəzarətdə iki paralel qrupun xəstələnməsi nəticəsinin müqayisəsindən istfiadə olunur. Həmçinin onların növləri müəyyənləşdirilir.

Nəzarət müdir və kollektivin fəaliyyətini (forması, məzmunu, tarixi) özündə cəmləşdirən müəssisənin illik iş planına, rəhbər sənədlərə istinadən aparılır.

## Nümunəvi məşğələlər

### I-II məşğələ

Mövzu: "Sehirli torba" oyunu

Məqsəd: Uşaqlara torbada olan əşyaların adını deməyi öyrətmək.

Material: Oyuncaqlar-gəlincik, top, maşın, ayı balası, pişik, evcik, it, sehirli torba.

### III-IV məşğələ

Mövzu: "Qırmızı gəlin" şe'rinin oxunması.

Məqsəd: Uşaqlarda müqayisəyə olan həvəsi artırmaq.

Material: Gəlincik.

### V-VI məşğələ

Mövzu: "Xoruz, toyuq və cücə üçün evciyin tikilməsi".

Məqsəd: Uşaqları "xoruz", "toyuq", ""cücələrim" sözlərini düzgün

...rmaya həvəsləndirmək. Onlarla sözləri yenidən demək. Uşaqlara ...enilən tapşırıqlara nəzarət etməyi öyrətmək.

Material: 4-5 böyük kub, oyuncaqlar, xoruz, toyuq, cücə.

**VII-VIII məşğələ**

Mövzu: "Pişiyi müşahidə etmək"

Məqsəd: Pişiyi xarici görünüşünə görə tanımaq. Bədəninin ayrı-ayrı hissələrini fərqləndirmək və adını demək.

**IX-X məşğələ**

Mövzu: "Hədiyyə"

Məqsəd: Tanış əşyaları öyrənmək və adını demək.

Material: oyuncaqlar, it, pişik, xoruz, quş, oyuncaqlarını bükmək üçün ...ağız salfet, şe'r.

**XI-XII məşğələ**

Mövzu: "Pişik, it və keçi üçün evciyin tikilməsi".

Məqsəd: pişik, it, keçi, göl uşaqlara bu sözlərin tələffüzünü öyrətmək. Bu sözlərdən kiçik cümlələr qurmaq: "Pişik gəldi", "Evə gəldi".

Material: 4-5 böyük kub, oyuncaq pişik, it, keçi, tülkü, bayraq.

**XIII-XIV məşğələ**

Mövzu: "Kukları yatızdırmaq"

Məqsəd: Kukları yatızdırmağı öyrətmək. Əşyaların adını düzgün tələffüz etdirmək. Geyim əşyalarını çıxartmaq, geyindirmək, "uzan", "yat" sözlərini düzgün tələfüz etdirmək.

Material: oyuncaq çarpayı, yorğan- döşək, gəlincik üçün balaca stol, geyindirilmiş gəlincik-papağı, lenti, ayaqqabısı. Gəlincik haqqında uşaqlara tanış olan şe'rlər, nəğmələr.

Mövzu: "Bura bir quş qondu".

Məqsəd: Tərbiyəçi uşaqlara barmaqlarını göstərməyi, onlara baxmağı təklif edir və deyir: "Bu da mənim barmaqlarım" (o əvvəl bir-bir, sonra isə hamısını birlikdə göstərir). Sonra əyləncəli şe'ri deməyə başlayır.

Bura bir quş qondu (ovcunun içini göstərir)
Qağ elədi,
Yumurtasın ağ elədi.
Biri bişirdi, (baş barmağı qatlamaq)
Biri düşürdü, (şəhadət barmağı qatlamaq).
Biri yedi, (orta barmağı qatlamaq),
Biri içdi, (adsız barmağı qatlamaq),
Bılı-bılıya qalmadı, (kiçik barmağı göstərmək),
O, da pırr eləyib uçdu.

Tərbiyəçi sözləri ritmik, aydın deyir və sözlərə uyğun barmaqları göstərir. Əyləncəni bir iki dəfə təkrar edir. Əvvəl bir uşaqla sonra 3-4 uşaqla davam etdirir.

Mövzu: "Evcikdə kim yaşayır" (səsi yamsılamağa aid məşğələ).

Məqsəd: Uşaqlarda səs və sözləri ifadə etmək bacarığını, heyvanlar haqqında onların təsəvvürlərini yoxlamaq. Təribyəçi uşaqları iki yarımqrupa

ayırır. Hər yarım qrup onlara tanış olan bir heyvanı təsvir edir. Uşaqlar dairə şəklində qoyulmuş stullarda otururlar (hər stul bir evcikdir).

Bir uşaq evciyə yaxınlaşıb, çubuqla qapını döyür: "Evcikdə kim yaşayır?" Evcikgə oturub hər hansı bir heyvanı təsvir edən uşaq həmin heyvanın səsini təqlid edir.

Material: it, pişik, xoruz, ayı, tülkü və s. heyvanların maskaları.

Mövzu: "Hərəkətlərin inkişafı".

Məqsəd: Kələkötür lövhə üzərində yerişin öyrədilməsi, yeşiyin üzərinə qalxıb düşmək bacarığının aşılanması, baş arxasına iki əllə tullanma hərəkəti ilə tanışlıq, boşluğa bələdləşməyin inkişaf etdirilməsi.

Material: kələkötür lövhə, yeşik, çubuq, uşaqların sayına görə toplar.

## "MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ TƏRBİYƏ VƏ TƏ'LİM" PROQRAMINA METODİK İŞLƏMƏLƏR[1]

### Rəsm – appilikasiya

#### I rüb

1. "Dəniz" rəsm əsərinə tamaşa etmək.
2. "Qızıl payız" — rəsm.
3. "Dairədə naxış" — applikasiya.
4. "Payız meyvələri"— rəsm.
5. "Ev" — applikasiya.
6. "Neft daşları" — rəsm.
7. "Çılpaq ağac" — applikasiya.
8. "Atəşfəşanlıq" — rəsm.
9. "Kök və çuğundur" — applikasiya.
10. Fincan" — rəsm.
11. Həndəsi fiqurlar. — applikasiya.
12. Niyyət üzrə rəsm.

#### II rüb

1. "Padşah və xoruz" "Üç ayı" nağılına çəkilmiş illüstrasiyalarla tanışlıq.
2. Kvadratı diaqnal boyu kəsməklə üçbucaq almaq, karton üzərinə yapışdırmaq. — applikasiya.
3. "Bəzəmişik yolkanı"— rəsm.
4. "Göbələk" —karton üzərinə yapışdırmaq.
5. "Qar yağır" —rəsm.
6. "Vaqonlar" —hazır cızılmış formanı kəsmək.
7. "Milli xalça" — rəsm.
8. "Toyuq və cücələr" —hazır kəsilmiş hissələri yanaşı yapışdırmaq
9. Hazır kəsilmiş "bardağı" milli naxışla bəzəmək— rəsm.
10. "Dairə və oval" kəsmək.
11. Yaylığı bəzəmək— rəsm.
12. Niyyət üzrə applikasiya.

[1] Əvvəli məcmuəmizin 1999-cu il 4-cü və 2000-ci il 1-ci nömrəsində verilib.

### III rüb

1. Milli naxışlara baxmaq, rəng həlli ilə tanışlıq.
2. Küncləri qatlamaq yolu ilə düzbucaqlıdan dairə kəsmək.
3. "Çiçəklənmiq çəmən" —rəsm.
4. "Anam üçün açıqca" — applikasiya.
5. "Qatar" -kollektiv rəsm.
6. "Cücələr çəmənlikdə" — kollektiv applikasiya.
7. "Ağaclar çiçək açıb" —rəsm.
8. Dairədə naxış- applikasiya.
9. "Buta" -rəsm.
10. "Sehirli xalça" —kollektiv applikasiya.
11. Niyyət üzrə applikasiya.
12. Niyyət üzrə applikasiya.

## Gil işi–quraşdırma

### I rüb

1. Meyvələr —gil.
2. İki yerə qatlanmış kağızla "ev" qurmaq.
3. "Alma" —gil.
4. İki yerə qatlanmış kağazla avtobus quraşdırmaq.
5. "Limon"—gil.
6. Qozalardan " quş" quraşdırmaq.
7. "Qoz və kök" —gil.
8. "Hasar" —tikinti materialları ilə qurmaq.
9. "Silindr düzəltmək" —gil.
10. "Yük maşını" tikinti materialları ilə quraşdırmaq.
11. Niyyət üzrə gil işi.
12. Niyyət üzrə quraşdırma.

### II rüb

1. "Qar adam" —gil.
2. "Yolka zənciri" — quraşdırma.
3. "Kasa" —gil.
4. "Stəkan"—gil.
5. "Öldək balası"—gil.
6. "Qaz balaları ilə"—gil.
7. "Fincan" —gil.
8. "Qaraj" —tikinti materialları ilə quraşdırmaq.
9. "Anaya kömək" —kollektiv iş.
10. Kağızla "quş yuvası" quraşdırmaq.
11. Niyyət üzrə gil işi.
12. Niyyət üzrə gil işi.

### III rüb

1. Kağızla ikimərtəbəli "ev" quraşdırmaq.
2. "Kosa" — gil.
3. Kağızla "stul" quraşdırmaq.
4. "Dəm çayniki" —gil.

5. "Ev" –tikinti materialları ilə quraşdırmaq.
6. Plastilin lövhə üzərində heykəltəraş qələmi ilə "gül" kəsmək
7. "Quş dənliyi" – quraşdırmaq.
8. "Naringi" –gil.
9. "Paraşüt" –gil.
10. Vyetnam papağı" – quraşdırmaq
11. Plastilin lövhədə heykəltəraş qələmi ilə oval (yumurta) kəsmək.

## Ana dili və bədii ədəbiyyat

### I rüb

1. "Bakı" –Z.Cabbarzadə.
2. Keçilər- yanıltmac.
3. *Dələ-tələ, bala- bəla, kiçik-küçük* sözlərini cümlədə fərqləndirmək.
4. "Getdim-gördüm" nağılı.
5. "Qız qalası" –Əli Vəkil.
6. Oxşamalar.
7. "Nailə, xallı, yumru" –H.Zeynalova.
8. *Yamaq-yanaq, kənd-qənd, qələm-kələm* sözlərini fərqləndirmək, cümlə qurmaq
9. "Günəş və külək" eston xalq nağılı.
10. "Ana yurdum" –A.Şaiq.
11. vvəllər öyrədilmiş şe'rlərin təkrarı.
12. "Getdim-gördüm" nağılını səhnələşdirmək.
13. Tərəvəzlərə aid tapmacalar.
14. "Şamdan" nağılı.
15. *Kəl-gəl, qoz-köz, həyat-həyət* sözlərini cümlədə fərqləndirmək.
16. "Babam" –M.Namaz.
17. Meyvələrə aid tapmacalarla didaktik oyun.
18. "Cik-cik xanım" Azərbaycan xalq nağılı.
19. "Gələz-gəlməz" yanıltmacı. *K-G* səsləri üzrə iş.
20. "Üşüdüm" –T.Elçin.
21. "Çəkməçi və ağacdələn".
22. "Qızıl gül" –A.Şaiq.
23. "Cik-cik xanım" nağılını səhnələşdirmək.
24. I rüb ərzində öyrədilən şe'rlərin təkrarı.

### II rüb

1. "Can nənəm" –T.Elçin.
2. Kürd-kürt, yamaq- yanaq, qənd-kənd sözlərini cümlədə fərqləndirmək.
3. "Günəşin nağılı" Azərbaycan xalq nağılı.
4. "Bal arısı" –H.Ziya.
5. Laylalar.
6. "Alma" rus xalq nağılı.
7. "Qış" şəkil üzrə nəqletmə.
8. "Qəhrəmanlar" –T. Mütəllibov.
9. Tərbiyəçinin yarıda saxladığı nağılı davam etdirmək.
10. "İki acöz ayı balası" macar nağılı.
11. "Qızıl gül" –M.Seyidzadə.

12. "İki acgöz ayı balası" nağılını səhnələşdirmək.
13. "Heyvanlar qışda" şəkil üzrə nəqletmə.
14. "Nə üçün dovşanın quyruğu qısadır?"
15. "Qərənfil" –A.Şaiq.
16. "Oyuncaqlarım" süjetli hekayə qurmaq.
17. "Ayoqa" nanay xalq nağılı.
18. Vətən haqqında bayatılar.
19. "Can gülüm" –A.Şaiq.
20. "Tülkü - tülkü - tünbəki" əyləncəsi.
21. "Tıq-tıq xanım" Azərbaycan xalq nağılı.
22. "Biləndər" Azərbaycan xalq nağılı.
23. Rüb ərzində əzbər öyrədilən şe'rlərin ətkrarı.
24. "Tıq-tıq xanqım" nağılını səhnələşdirmək.

**III rüb**

1. "Can anam" –M.Dilbazi.
2. "Qaz və durna" –Uşinski.
3. Səməni.
4. "Lovğa dövşan" –Z. Hacızadə.
5. Novruz nəğmələri.
6. "Dələ nə üçün meşəyə qaçdı?" –rus xalq nağılı.
7. "Bahar mənəm" –N. Xəzri.
8. "Qarışqa və göyərçin" –rus xalq nağılı.
9. "Bahar" –V.Adil
10. "Yaz gəldi" şəkil üzrə nəqletmə.
11. Əzbər öyrədilmiş şe'rlərin təkrarı.
12. Nağallardan birini səhnələşdirmək.
13. "Bənövşə" –A. Şaiq.
14. "Saymacalar" xalq folkloru.
15. "Siçanlar" -L.Tolstoy.
16. "Üşüdüm" –T. Elçin.
17. "Qaz və durna" –K.D.Uşinski.
18. "Bayatılar" xalq folklorundan.
19. "Sağıcıdır mənim nənəm"- X.R.Ulutürk.
20. "Mən rəngləri tanıyıram" –Z.Xəlil.
21. "Bal arısı" –H.Ziya.
22. "Cücələrim"- T.Mütəllibov.
23. "Bəsimdi" –M.Aslan.
24. "Sərhədçi" –S. Şeyda.

## Ətraf aləmlə tanışlıq və nitq inkişafı

**I rüb**

1. Uşaqları respublikanın rəmzləri (bayraq, gerb, himn) ilə tanış etmək.
2. Günəşin, suyun, havanın əhəmiyyəti. Payızda havada olan dəyişikliklər.
3. 4-5 ağacı görünüşünə görə fərqləndirməyi öyrənmək. Gövdə, kök, budaq, yarpaq haqqında anlayış vermək.

4. Payız meyvələri ilə "dadından tanı" oyunu.
5. Ev heyvanları və balaları ilə tanışlıq, əhəmiyyəti və xeyrini anlatmaq.
6. Milli xalq sənətinin bə'zi növləri *(dəmirçilik, misgərlik, xalçaçılıq, zərgərlik)* ilə tanışlıq.
7. Nəqliyyat vasitələri (hava, su, quru, dəmiryolu).
8. Yırtıcı heyvanlar (şir, pələng, ayı, canavar) şəkil üzrə müsahibə.
9. Maral, ceyran, dovşan, kirpi, yırtıcı olmayan heyvanlardır. Şəkil üzrə müsahibə.
10. Payız tərəvəzləri ilə "Dadından tanı" oyunu.
11. Ev quşları, əhəmiyyəti.
12. Çöl quşları (göyərçin, qarğa) –köçəri quşlar (durna, qaz, qaranquş) şəkil üzrə müsahibə.

**II rüb**

1. Milli Ordumuz haqqında mə'lumat. (tankçı, təyyarəçi, dənizçi, piyada). Şəkil üzrə müsahibə.
2. Bakı və onun görməli yerləri-albom üzrə müsahibə.
3. Yol hərəkəti qaydaları– şəkil üzrə müsahibə.
4. Günün hissələri (səhər, günorta, axşam, gecə) haqqında müsahibə.
5. Gövdə, budaq, qışda ağaclar və həmişəyaşıl ağaclar haqqında müsahibə).
6. "20 yanvar" Milli matəm günüdür. Guşədə müsahibə.
7. Qışlayan quşlar (sərçə, qarğa, qağayı) şəkil üzrə müsahibə..
8. Dövlət rəmzləri ilə tanışlığı davam etdirmək, himni musiqi ilə oxumağı öyrətmək.
9. Ev və çöl quşlarının şəkilləri üzrə "Kim nə bilir" didaktik oyunu.
10. Müxtəlif sənət v peşələrlə tanışlıq. "Sən bilirsənmi" didaktik oyunu.
11. "Fəsilləri öyrən" didaktik oyunu.
12. Təkrar.

**III rüb**

1. "Nəyi nədən düzəldirlər" didaktik oyunu.
2. Səməni əkmək, budağı suya qoymaq.
3. Suyun, qarın, buzun, qumun, gilin əlamətlərini fərqləndirmək.
4. Respublikanın iri şəhərləri Bakı, Sumqayıt, Mingəçevir haqqında müsahibə.
5. "Tərəvəz və yarpaqlar" didaktik oyunu.
6. Milli sənət növləri.
7. "Adamlar harada və nədə gedirlər" didaktik oyunu.
8. "Sən bilirsənmi?" didaktik oyunu.
9. "28 May" İstiqlal günü haqqında mə'lumat.
10. "Milli bayramlarımız" didaktik oyunu.
11. "Yay meyvələri" didaktik oyunu.
12. Giləmeyvələr (çiyələk, böyürtkən, moruq) didaktik oyunu.

*Kəmalə Əliyeva,*
*Nərimanov RTŞ-nin metodis*

# Y.A.KORÇAKIN İDEYALARI

*Nazilə Rüstəmova,*
*pedaqoci elmlər namizədi*

Hamımızın yaxşı yadımızdadır. Qarabağ konflikti yenicə başlayanda ermənilər onlarla azərbaycanlı balasını yoğun dəmir boruya doldurub, onu hər iki tərəfdən qaynaq edib uşaqları boğmuşdular.

Alman faşistlərinin bu hadisəyə bənzər cinayətlərini xatırladım. Onlar Polşanı istila edərkən Varşavada uşaq evinin direktoru, həkim-pedaqoq Y.A.Korçakı tərbiyə etdiyi 2000 uşaqla klimatoriyada —ölüm fabrikində yandırmışdı. Belə qənaətə gəldim ki, faşist hər yerdə faşistdir. Bəs, 200 uşaqla birlikdə yandırılan Y.A.Korçak kimdir?

* * *

Zəngin biliyə malik, qayğıkeş Y.A.Korçakın faciəli ölümündən sonra onun tərcümeyi —halını yazan Neverili deyirdi: Korçak duzlu yumoru, şirin söhbəti, maraqlı danışığı, əyləncəli tədbirləri ,cazibəli oyunları, hazırcavb bir şəxs kimi Varşavada tanınırdı. Korçak uşaqları ürəkdən sevən, həssas, qayğıkeş bir həkim olmuşdur. Neverili haqlı olaraq onu məşhur isveç pedaqoqu İ.H. Pestalotsi ilə müqayisə etmişdir.Korçak 1878-ci ildə Varşavada vəkil ailəsində dünyaya göz açmışdır. Onun əsl adı Henrix , familiyası Qoldşmitdir. Yanoş Kroçak kimi tanınmasının qəribə tarixçəsi var. 20 yaşında ədəbi fəaliyyətə başlayan Henrix özünə gizli imza axtarırdı. Bir gün o, təsadüfən dövrünün tanınmış yazıçısı Kraşevskinin "Yanoş Kroçak və qılınc düzəldənin gözəl qızının əhvalatı" əsərini görür. Bu ad onun xoşuna gəlir və əsərlərini həmin imza ilə nəşr etdirməyə başlayır. Bundan sonra Henrix adı unudulur və o, Yanoş Korçak kimi tanınır.

1890-cı ildə atası vəfat edəndən sonra çətinlik çəkən Korçak evlərdə dərs deməklə özünü dolandırır. 1897-ci ildə orta təhsilini başa vuran Y.Korçak Varşava Universitetinin tibb fakültəsinə daxil olur. O,hələ tələbə ikən ədəbi fəaliyyətə başlayır. Onun lk əsəri "Hansı yolla" adlanır. Universiteti qurtardıqdan sonra o, 1910-cu ilə kimi uşaq həkimi işləyir və həyatını balacalara bağlayır, bir həkim kimi uşaqları ürəkdən sevir. Bu sevgi cavabsız qalmır, uşaqlar da onu sevirlər. Ata-analarının sözünə baxmayan uşaqlar onun bir sözünü iki etmirdilər. O, uşaqların psixologiyasını yaxşı bildiyi üçün hər kəslə danışmağı bacarırdı. O, uşaqlarla zarafat edir, yeri gəldikdə onları maraqlı nağılları ilə yatızdırırdı. Korçak uşaqların süd dişlərini çəkmək istəyəndə belə uşaqlar qorxmadan özləri onun yanına gəlirdilər.

Həkimliklə yanaşı ədəbi yaradıcılıqla da məşğul olan Korçakın qaynar fəaliyyəti yuxarı dairələri şübhələndirir və buna görə də onu həbs edirlər. O, "Lakey və küçə uşaqları" adlı əsərini həbsxanadan çıxandan sonra yazmışdır. Avropanın bir sıra yerlərini gəzmiş, böyük

təəssüratlarla vətəninə qayıtmış Y.Korçak həmin səfəri haqqında belə yazırdı: "Berlin xəstəxanası və alman təbabətinə aid ədəbiyyat mənə bildiklərim haqda bir daha düşünməyi, Paris —bilmədiyim və gələcəkdə öyrənəcəyimi mənə öyrətdi. Berlin —fərəhsiz günlər, xırda qayğılar deməkdir. Paris —xoş sabah, ümidverici , böyük zəfər deməkdir".

Səyahət ona müəyyən məsələləri aydınlaşdırmaqda, müqayisə edib, nəticə ıxarmaqda kömək etmişdir.

O, 1904-1905-ci illərdə bir həkim kimi rus-yapon müharibəsində yaralılara xidmət etmiş, eyni zamanda gözəl hekayələr, felyetonlar yazmışdır.

1906-cı ildə onun "Yurdsuz uşaqlar" kitabı çapdan çıxır. Bu əsərində o, cəmiyyətdəki ictimai yaraları, bərabərsizlikləri, varlı ailələrin tərbiyəyə münasibətini kəskin tənqid edir. 1908-ci ildə o, "Yetimlərə kömək" cəmiyətinin üzvü seçilir, həmin cəmiyyətin xətti ilə nəşr edilən "Həftəlik" adlı qəzetin səhifələrində onun xalq həyatından bəhs edən "Məktəb həyatı", "Xəstəxana", "Yeni şagird" , "Xalq evi" və s. hekayələri dərc edilir. Həmin illərdə o, könüllü olaraq yay uşaq kaloniyalarında işləyir. Onun "Yuski, Yaski və Fransi", "İoski, Moski və Srule" kimi əsərləri uşaqlara qiymətli töhfədir.

Korçakın bir pedaqoq kimi yetişməsində uşaq evində işləməsi, uşaqlarla apardığı pedaqoji iş böyük rol oynamışdır. Korçak 1911-ci ildən ömrünün sonuna kimi uşaq evinə rəhbərlik etmişdir. Onu ən çox şöhrətləndirən "Uşağı necə sevməli" əsəri olmuşdur. Bu əsər Pestalotsinin "Getruda öz uşaqlarını necə tərbiyə edir" əsərinə bənzəyir. Korçak bunu bir neçə dəfə əsərində qeyd edir.

Korçak dostuna belə yazır: "Sənin seçdiyin mövzu həyatdan götürülmüş toxluq və mə'nəvi zənginlikdən ibarətdirsə, səni məğlubiyyət gözləyir, səndə mənəvi boşluq yaranır. Sən başqalarını zənginləşdirmək üçün özünü zənginləşdirirsənsə, deməli, sənin məqsədin vardır. Sən günbəgün zənginləşirsən. Əgər sən əzablarını özünə, sevincini başqasına verə bilirsənsə, səndəki bütün eqoizm yox olub gedir, müvəffəqiyyətsizlik bu zaman səni narahat etmir. İntellektual yetkinik zamanı məqsədinə xidmət etmək istəyən adam mə'nəvi cəhətdən daha güclü , daha zəngin, daha üsyankar bir şəxsiyyətlə ünsiyyətdə olmağa çalışır". Bu sözlərdə Korçakın daxili aləmi, amalı, məqsədi aydın ifadə olunmuşdur. O da sevincini başqaları ilə bölmək, başqalarına əzab vermək, kimə isə kömək etmək, əl tutmaq kimi vacib işlərdən mə'nəvi qüvvət alır,öz rahatlığını başqasının rahatlığında tapır.

O, 1919-cu ildə Varşavaya gəlir və burada "Tərbiyəvi anlar" kitabını yazır. Korçak zəhmətsevər, yorulmaq bilməyən, işdən ləzzət alan bir insan olmuşdur. Bu illərdə o, gah radioda çıxış edir, gah hərbi xəstəxanalarda mühazirə oxuyur, kiçik qanunpozanların məsələsini öyrənmək məqsədilə Varşava məkəmələrində eksperiment aparır. "Uşaqları necə sevməli" əsərinin ikinci hissəsi olan "İnternat", "Yay kaloniyaları", "Yetimlər evi" kimi kitabları nəşr etdirir.

1924-1939-cu illər onun yaradıcılıq üfüqlərinin daha da genişləndiyi dövrdür.O, uşaqlar üçün "Kiçik dünyagörüşü" adlı jurnal nəşr etdirir.

"Dinsizin allahla təklikdə söhbəti", "Kiçik Cekin iflasa uğraması", "Ani utanmazlıqlar" əsərini yazır. Uşaqlar üçün yazdığı "I Karl Matiuşa Matiuş yalançılığa, ikiüzlülüyə qarşı çıxır" əsəri ilə o, dünyanı ən yüksək prinsilər əsasında qurmağa, ədaləti bərpa etməyə çalışır.

1934-cü ildə "Uşaqlara hörmət etmək qaydaları", "Kral Matiuş kəşf olunmamış adada", "Sehrkar Kaytus" əsərlərini yazır. 1935-ci ildən başlayaraq radio ilə "Qoca həkimin söhbətləri" adı ilə pedaqoji fikirlərini, ideyalarını əks etdirən verilişlər aparır. 1937-ci ildə Lui Pasterə həsr etdiyi "İnadkar oğlan" əsəri ilə yanaşı "Xeyirxah insanlar", "Qerşakın 3 səyahəti", "Əyləncəli pedaqogika" əsərlərini yazır.

Bu dövrdə artıq ikinci dünya müharibəsi gedirdi. Faşistlər Avropanın bir sıra ölkələrini az vaxtda işğal edib, Polşaya daxil oldular. Y.Korçak uşaq evində, xəstəxanada işləyir, yeni əsərlər yazırdı. Alman faşistləri bir həkim kimi ondan alman odusunda işləməyi tələb etdilər, lakin tələb rədd olundu. 1942-ci il sentyabrın 5-də esesçilərin əmri ilə Korçak başda olmaqla 200 nəfər uşağı küçəyə çıxarıb sıraya düzdülər. Yaşıl fon üzərində üç zolaq uşaq evinin bayrağı dəstənin başı üzərində dalğalanırdı. Uşaqlar sakit, lakin inamla soyuq küçə ilə irəliləyirdilər. Onları qatarla Treblindəki ölüm düşərgəsinə yola saldılar. Faşistlər onları sobada yandırdılar.

Korçak ölümü mərdliklə qarşılayıb, 200 uşaqla birlikdə həlak oldu. O, həmin hadisəni belə təsvir etmişdi: "Mən öləcəyimi bilirdim. Korpə uşaqların isə heç bir günahı yox idi. Mən onlara ürək-dirək verir, nağıl danışır, ölüm ayağında mərd olmalarını tapşırırdım. Mən ölümə onlarla getməyə razı oldum ki, onlar cəsarətli olsunlar"

O, uşaqlara böyük ümidlə baxır, onların nurlu sabahına inanırdı. O yazırdı:" Bax, görürsən, var gücü ilə bağıran bu oğlanı, kim bilir, bəlkə məşhur kimyaçı olacaq, kəşflər edəcəkdir. Uşaq nə lotereya bileti, nə də teatrın foyesinə qoyulmuş büstdür. Hər bir uşaqda müəyyən mə'nada özünəməxsus qığılcım var. Elə qığılcım ki, onunla xoşbəxtlik ocağı yandıra bilər, sonrakı nəsillər üçün dahi, yaxud bəşəriyyət üçün günəş ola bilər.

Korçak uşağın tərbiyəsində valideynin böyük əhəmiyyəti olduğunu belə xarakteizə edirdi. Uşağın paltarı köhnədirsə, yaxud ayaqları yalındırsa, bunun üçün heç kim onun valideynini təqsirləndirmir, lakin uşağın davranışında bir qüsur görəndə o dəqiqə onun valideyninin ünvanına hər söz deyilir. Valideyn uşağını yaxşı tərbiyə edibsə, onun yaxşı əməllərindən həmişə fərəhlənəcəkdir.

Korçak uşaqların birinci növbədə fiziki sağlamlığı qayğısına qalmağı zəruri hesab edirdi, çunki başqa keyfiyyətlər bunun üzərində formalaşır. Uşaq günbəgün yalnız inikşaf etmir, həm də öz mütənasibliyini dəyişdirir. Bəzən ana uşağın arıqladığından, yuxusuzluğundan şikayət edir. O başa düşmür ki, uşaqlığın birinci ilində onda döş qəfəsinin , çiiyn əzələsinin möhkəmlənməsi üçün uşaqda piy qatİn əmələ əlir, göz , mədə, ürək, baş, sümük —hamımız növbəsində inkişaf edir.Uşaqda zəiflik diş çıxaranda, çiçəyi döyüləndə, ana südündən ayrılanda başlayır.

Bə'zən valideyn uşağı zorla yedizdirir, uşaq yemək istəmir, ana isə onu məcbur edir. O yazır ki, uşaq nə qədər yemək istəyirsə, o qədər yeməlidir. Uşaq yatmaq istəmirsə, onu yatırtmaq özü qəddarlıqdır.

Korçak qeyd edirdi ki, bəzən valideynlər elə başa düşürlər ki, onların uşaqları gözəldirsə, deməli, onun tərbiyəsi qayğısına qalmaq bir o qədər də lazım deyildir, çünki həyatda o, hər şeyə nail olacaqdır. Doğrudur ki, gözəllik, qamət, zahiri g.rkəm, gözəl səs- bütün bunlar insanın qiymətli sərvətidir. Ağıl ilə sağlamlıq isə həyat yolunu işıqlandıran mayakdır. Tərbiyə olmayan yerdə gözəllik öz əhəmiyyətini itirir.

